YÜKSƏK TƏHSİL UĞRUNDA!

# İLAHİYYATÇI

www.ait.edu.az

Təsisçi: Azərbaycan İlahiyyat İnstitutu

İyul, 2019-cu il / № 08



# “İslam sivilizasiyası Qafqazda”

## II Beynəlxalq Simpoziumunun iştirakçılarına

***Hörmətli Simpozium iştirakçıları!***

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində salamlamaqdan məmnun olduğumu bildirir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Etnik-mədəni müxtəlifliyi və təbii-coğrafi zənginlikləri ilə dünyanın unikal guşələrindən olan Qafqazın son 1400 illik tarixi İslam dini ilə bağlıdır. Azərbaycanda, o cümlədən Qafqazın müxtəlif bölgələrində bu dinə məxsus çoxsaylı maddi və qeyri-maddi mədəniyyət nümunələri İslam sivilizasiyasının regiondakı dərin köklərindən xəbər verir. Bu gün Qafqazda yaşayan xalqların bir çoxunun mədəniyyətinin əsasını İslam dəyərləri təşkil edir.

İslam VII əsrin ortalarından etibarən Azərbaycanda yayılmağa başlamış və ölkəmiz İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən birinə çevrilmişdir. Xalqımız yüz illər boyu belə bir mədəni-mənəvi müstəvidə bəşəri fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya şöhrətli azərbaycanlı alim və mütəfəkkirlər, söz və sənət dühaları İslam mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmişlər.

Tarixən olduğu kimi, bu gün də Azərbaycanda islami dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verilir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 9-11 dekabr 1998-ci ildə “İslam sivilizasiyası Qafqazda” Beynəlxalq Simpoziumunun Bakıda keçirilməsi xalqımızın öz tarixi keçmişinə və milli-mənəvi dəyərlərinə bağlılığın bariz nümunəsi idi.

2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsi və IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi müasir narahat dünyamıza əmin-amanlıq və həmrəylik çağırışları kimi qiymətləndirilməlidir. Bir sıra ölkələrdə islamofobiyanın vüsət aldığı hazırkı dövrdə biz insanları birliyə, bərabərliyə, sülhə və tolerantlığa dəvət edən ümumbəşəri İslam dəyərlərinin təbliği istiqamətində ardıcıl səylərimizi, eyni zamanda, mədəniyyətlərarası dialoq və əməkdaşlıq təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

“İslam sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun maraqlı və konstruktiv müzakirələr şəraitində keçəcəyinə, Azərbaycanın, ümumilikdə Qafqazın İslam sivilizasiyasının inkişafındakı tarixi yerinin və rolunun araşdırılmasına yeni töhfələr verəcəyinə əminliyimi bildirir, toplantınızın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 10 iyul 2019-cu il.

*Birinci vitse-prezident Mehriban Əliyeva:*

## Ümummilli lider Heydər Əliyev bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət edib



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Müasir Azərbaycan tarixinin bütün səhifələrində, istər iqtisadiyyat, istər xarici siyasət, istər elm və mədəniyyətdə onun silinməz izlərini görürük.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsində edilən paylaşımda yer alıb.

Paylaşımda qeyd edilir ki, Heydər Əliyev nailiyyətləri və qələbələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək nəsillər üçün mərdlik, müdriklik və vətənpərvərlik nümunəsi olacaqdır.

## Əsrə bərabər 50 il

⇨ Bax: səh. 2

## Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50-ci ildönümü

⇨ Bax: səh. 11

## “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu




⇨ Bax: səh. 4-7



⇨ Bax: səh. 8

## “Sızlar yada düşəndə ürəyimin telləri, O mehriban, o əziz tələbəlik illəri”...

## Milli Mətbuat Günü münasibətilə media nümayəndələri mükafatlandırılıb

⇨ Bax: səh. 10

# Əsrə bərabər 50 il

**Tarix şəxsiyyətlər yetişdirir. Onlar da öz növbəsində, tarix yazır və yaddaşlarda iz buraxıb gedirlər.**

Dünya təcrübəsi sübut edib ki, yüksək inkişaf yolu keçmiş dövlətlər uğura güclü liderlərin sayəsində nail ola biliblər. Ulu Öndər Heydər Əliyev öz xalqının dünyaşöhrətli liderlərinin ön sırasında gedən dahi oğludur. Adı tarixin salnaməsinə qızıl hərflərlə yazılan müdrik liderin Azərbaycanda hakimiyyətə gəlməsindən 50 il ötür.



Xalqımızın dahi oğlu Heydər Əliyevin 1969-cu il iyulun 14-də hakimiyyətə gəlişi ilə Azərbaycan tarixində yeni era başlandı. Məhz bu dövr tariximizə "Heydər Əliyev epoxası" kimi daxil oldu və milli özünüdərkin, özünəqayıdışın başlanğıcına çevrildi. Dövlət başçısı kimi, cahanşümul fəaliyyət tarixinin əvvəli olan bu dövrün idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqamətini də məhz xalqın özünüdərkinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin gücləməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşməsi təşkil edir.



Dahi rəhbərin gərgin əməyi nəticəsində, Azərbaycan qısa müddətdə SSRİ-də geridəqalmış aqrar ölkədən iri addımlarla irəliləyən sənaye respublikasına çevrildi. Ölkədə neft sənayesi, neftmaşınqayırması, elektronika sahələri inkişaf etdirildi, yeni texnologiyalar əsasında İttifaq əhəmiyyətli Bakı Kondisionerlər Zavodu kimi onlarca iri sənaye müəssisələri şəbəkəsi yaradıldı. Milli hərbi, elmi kadrların hazırlanmasına inkişafın təməl prinsipləri kimi yanaşan Ulu Öndər gənc mütəxəssislər nəsli yetişdirmək sahəsində mühüm addımlar atdı. Azərbaycanlı gənclərin müxtəlif ixtisaslara yiyələnmələri üçün onları keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə oxumağa göndərdi. Təhsil islahatlarının əsasını qoydu və bu yolla Azərbaycan elmi inkişaf etdi, kadr potensialı gücləndirildi, xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərinin fəal təbliği həyata keçirildi. Respublikada milli kadrların hazırlanması, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit və inkişafı, dövlət idarəetmə strukturlarında çalışan vəzifəli şəxslərin azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində mühüm addımlar atıldı. Millidüşüncəli kadrlarla zənginləşən ölkədə mühüm vəzifələrə milli kadrlar irəli çəkildi.



1967-1969-cu illərdə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbərlik etdiyi illərdə müdrik rəhbər bu qurumu xeyli dərəcədə azərbaycanlılaşdırdı.

Dövlət başçısı kimi ardıcıl və yorulmaz fəaliyyətinin nəticəsi özünü qısa müddətdə göstərdi. 1970-1980-ci illərdə Azərbaycan iri addımlarla irəlilədi və ölkənin quruculuq tarixinə ən parlaq səhifələr yazıldı. Sarsılmaz iradə sahibi olan Ümummilli Lider totalitar rejimin qadağa və buxovlarına baxmadan Azərbaycanın yaradıcı adamlarına düşündüyünü yazmağa və geniş auditoriyaya çatdırmağa imkan yaratdı. Onun köməyi ilə, hətta bir neçə dissident "KQB"nin dəhşətli zindanlarına düşməkdən azad olundu.

1969-1982-ci illərdə Azərbaycan SSRİ-də birincilər sırasında addımladı. Respublika on üç il dalbadal SSRİ-nin "Keçici Qırmızı" Bayrağına layiq görüldü. Xalqın həyat səviyyəsi yaxşılaşdı.

1993-cü ilin iyununda Heydər Əliyevin xalqın təkidli tələbləri ilə yenidən hakimiyyətə gəlməsi Azərbaycanı düşdüyü ən çətin vəziyyətdən xilas etdi. Bəzi xarici dairələrin təsiri altında müxtəlif silahlı qruplar qısa müddətdə zərərsizləşdirildi, Ermənistanla atəşkəs razılığı əldə edildi və bütün sahələrdə inkişafın bünövrəsi qoyuldu. Cəmiyyətdə uğurlu islahatlar aparıldı.

Azərbaycan onu məngənəsində sıxan informasiya blokadasından azad edilərək dünyaya çıxış qazandı. Ulu Öndərin apardığı siyasətin nəticəsidir ki, müstəqil Azərbaycan beynəlxalq aləmdə qüdrətli dövlət kimi tanınır. Ulu Öndər zamanında deyib: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri, respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolunuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan Dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək, demokratik, demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik".




Andiçmə mərasimində xalq qarşısında bu vədləri verən Ümummilli Lider sona qədər sözünün üstündə durdu. Ölkədə iqtisadi və siyasi islahatlar paralel şəkildə aparıldı. Müstəqil respublikamızla əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artdı. Ölkəmizə qarşı artan inamın müqabilində Azərbaycana sərmayə qoyuluşu geniş vüsət aldı. Maddi nemətlər bolluğu yaradıldı. Ümummilli Liderin əsasını qoyduğu yeni neft strategiyasının təməlində duran "Əsrin müqaviləsi" Azərbaycan xalqının həyatını rövnəqləndirdi. Dahi rəhbərin öz sözləri ilə desək, "Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir". Zəngin təbii resursların dünya bazarına çıxarılması, neftdən gələn gəlirlərin ölkənin hərtərəfli inkişafına töhfələr verməsi, xalqın maddi rifah halının yaxşılaşması, neft kapitalının insan kapitalına çevrilməsi Ulu Öndərin uzagörən siyasətinin nəticəsidir. Bakı Dərin Dəniz Özülləri Zavodunun tikilməsi, Xəzər dənizində aparılan axtarış-kəşfiyyat işləri nəticəsində yeni neft yataqlarının kəşf olunması, "Şahdəniz", "Günəşli", "Azəri", "Çıraq" və digər neft-qaz yataqlarının böyük gələcəyi haqqında proqnozları özünü həyatda doğrultdu.

Ulu Öndər Heydər Əliyev həm birinci, həm də ikinci dəfə Azərbaycana rəhbərliyi dövründə milli-mənəvi dəyərlərimizin, dini-tarixi abidələrimizin təmir və bərpasına xüsusi diqqət və qayğı ilə yanaşdı. Azərbaycan müstəqillik əldə etdiyi dövrdə ölkəmizdə 18 məscid var idi. Hazırda isə 2 250 məscid fəaliyyət göstərir. Onların böyük əksəriyyəti bilavasitə Ümummilli Liderin diqqət və qayğısı ilə inşa olunub. İkinci dəfə hakimiyyətə gəldiyi illərdə isə davamlı olaraq, din xadimləri və dindarlarla görüşürdü.

Hazırda bu siyasəti Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva uğurla davam etdirirlər. Dini-tarixi abidələrin bərpasına, yeni ibadət ocaqlarının inşasına xüsusi önəm verilir. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məntiqi davamının parlaq göstəricisidir. Eyni zamanda, son iki yüz ilin ən önəmli addımlarından biridir.

**Ceyhun Məmmədov,**
*Azərbaycan İlahiyyat İnstitutunun rektoru*

# Əbədiyaşar Lider

*"İnsanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kimsəyə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar".*

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV**

Ümummilli lider Heydər Əliyev hər zaman xalqımızın milli-dini dəyərlərinin qorunmasında, müqəddəs İslam dininə hörmət-ehtiram bəslənilməsində, millətin dini inancının, imanının, əqidəsinin daha da möhkəmləndirilməsində öz sonsuz əməli fəaliyyəti və tükənmək bilməyən zəhməti ilə böyük rol oynamışdır.

Heydər Əliyevin müsəlman ölkələrinə xoş münasibəti, İslam təəssübkeşliyi onun 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi zamanlardan yaranmışdı. Ulu Öndər hələ o zamanlar Sovet İttifaqının İslam dünyasında apardığı siyasəti formalaşdırırdı. SSRİ-nin Yaxın və Orta Şərq ölkələrinin rəhbərləri ilə apardığı danışıqlarda və siyasi məsləhətləşmələrdə məhz o, yaxından iştirak etmiş, bu dövlətlərə səfər edən nümayəndə heyətlərinin rəhbəri olmuşdur.

Təsadüfi deyil ki, həm sovet dönəmində, həm də müstəqillik dövründə Heydər Əliyev siyasi kursu zamanı daim dünya müsəlmanlarının maraqlarını nəzərə almışdır.

Ulu öndər deyirdi: "Müsəlman xalqlarının təhlükəsizliyini və ölkələrimizin ərazi bütövlüyünü təmin etmək, müsəlman aləminin sabit inkişafını təmin etmək bizim müqəddəs vəzifəmizdir".

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra, cəmiyyətdə hər sahədə olduğu kimi, dinlə bağlı vəziyyət də ürəkaçan deyildi. Belə mürəkkəb vəziyyətdən, ancaq çox yüksək siyasi təcrübəsi olan bir şəxs baş çıxara, yaranmış şəraiti düzgün analiz edib, əsaslı dönüş yaratmağa nail ola bilərdi. Yaranmış mürəkkəb situasiyada, siyasi arenada bir tək Heydər Əliyev yüksək idarəetmə mədəniyyəti və təcrübəsi ilə dövlət və din arasındakı münasibətləri tənzimləyə, dövlətin əsas və başlıca strateji xəttinə uyğunlaşdırmağa nail olacaqdı.

Əvvəlcə dövlət və din arasında yaranmış uçurum aradan götürülməli idi. İnsanlarda dövlətə qarşı güvən yaratmalı, anti-din, ateist siyasətdən kənar düşüncənin formalaşmaqda olduğuna xalqı inandırmaq əsas şərt idi.

Ulu Öndərin İslam dininə qarşı olan münasibətini, onun Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra, 1993-cü il 10 oktyabr tarixində andiçmə mərasimindəki nitqdə xalq açıq-aydın şəkildə gördü. Heydər Əliyev İslam dininin milli-mənəvi dəyərlərimizin yaşamasında olan rolundan danışarkən qeyd etmişdir: "Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına İslam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda İslam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda İslam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaranması üçün çox böyük fəaliyyət göstərəcəkdir".

Ulu öndər Heydər Əliyev uzaqgörən və dərin biliyə sahib şəxsiyyət idi. Yaranmış vəziyyəti düzgün analiz edib, problemə dövlət səviyyəsində, qanuni zəmində münasibət bildirmək üçün "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununda bəzi dəyişikliklər olundu.

Bundan başqa, Heydər Əliyev məscidlərə tez-tez gedir, din xadimləri ilə görüşür, dövlətin əsas strateji xəttini, din siyasətini özü şəxsən xalqa aşılamağa çalışırdı.

Hələ 1993-cü ildə Ulu Öndər Təzəpir məscidində din xadimləri ilə görüşdə İslam dininin tərəqqipərvər, dünyəvi əhəmiyyətindən belə bəhs etmişdi: "Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu və eyni zamanda, İslam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldiyi çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz məsləkini qoruyub saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, İslam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün İslam dininə itaət edən adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır".

Ulu Öndər, həmçinin əməlləri ilə də xalqa nümunə olaraq, Səudiyyə Ərəbistanı Krallığına səfər etmiş, müqəddəs Ümrə ziyarətini yerinə yetirmiş və İslam dünyasının mübarək şəhəri olan Mədinə şəhərində Peyğəmbər məscidinin Şərəf kitabına ürək sözlərini yazmışdır.

O, həmçinin İslam dininə həsr olunmuş beynəlxalq elmi, praktik və ölkəmiqyaslı tədbirlərin Azərbaycanda keçirilməsinin hər zaman təşəbbüskarı olmuşdur. Məhz Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə Vətənimizdə 1993-2002-ci illərdə İslam dini və İslam mədəniyyətinə həsr olunmuş bir çox tədbirlər baş tutmuşdur. Ulu Öndər hələ 1998-ci ilin əvvəlində "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun Bakıda keçirilməsi haqqında Sərəncam imzalamışdır. Elə həmin ilin sonunda, dekabr ayında Ulu Öndərin təşəbbüsü və dəstəyi ilə Vətənimizin paytaxtında möhtəşəm Simpozium baş tutmuşdur.

Azərbaycan müstəqillik qazandıqdan sonra, Ulu Öndər Heydər Əliyev İslam həmrəyliyi məsələsinə hər zaman diqqət yetirmiş, xarici siyasətdə İslam amilini xüsusi diqqətdə saxlamışdır. Vurğulamaq yerinə düşər ki, bu gün Prezident İlham Əliyevin "İslam həmrəyliyi" ilə bağlı çağırışı Ulu Öndər Heydər Əliyevin hələ XX əsrin 90-cı illərinin əvvəllərində əsasını qoyduğu "İslam birliyi" ideyasının məntiqi davamıdır.

Tarixi həmişə şəxsiyyətlər idarə etmişlər. Şəxsiyyətsiz tarix yoxdur. İnsanların inancsız, cəmiyyətin dinsiz yaşaya bilməyəcəyini tarix çoxdan sübüt edib. Azərbaycan Respublikasının müstəqillik strategiyası dini dəyərləri qorumaqdan, onu inkişaf etdirməkdən və dünyaya tanıtdırmaqdan ibarətdir.

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra, dağıdılmış məscidlər bərpa edilməyə başlandı. 1994-cü ildə ümummilli lider Heydər Əliyev qədim məscidin dağıdıldığı yerdə yeni məscidin tikilməsi barədə Sərəncam imzaladı. Məscidin bərpasında çəkilmiş şəkillərin, 1920-ci illərin ortalarında məscidin vəziyyətini təsvir edən Q.Sadiqinin 1925-ci ildə yazmış olduğu kiçik məqaləsi, həmçinin məşhur səyyahların qeydləri önəmli rol oynadı. Bərpa zamanı qorunub saxlanmış köhnə eskizlər, Şəkidəki Xan Sarayı, Gəncədəki Şah Abbas məscidində istifadə edilmiş Azərbaycan texnologiyası - şəbəkə ustalıqla istifadə edilmişdir. Bütün bunlar gözoxşayan əsrarəngiz bir görüntünün yaranmasına səbəb olmuşdur.

Bu gün böyük fəxarətlə deyə bilərik ki, Heydər Əliyev islamiyyətlə bağlı olan dini mərasim və adətlərin daim layiqincə keçirilməsinə böyük əhəmiyyət vermişdir. Bibiheybət məscidinin yenidənqurulmasına vəsait ayırması və bununla bağlı işləri şəxsi nəzarətində saxlaması da bu qəbildəndir. Bibiheybət məscidi illərsonra məhz Ulu Öndərin sayəsində yenidən həyat qazandı. Bütün bunlar Heydər Əliyevin timsalında ölkənin dinə, islamiyyətə olan dərin inam və hörmətinin göstəricisi idi.

Hazırda Bibiheybət məscidinin iki minarəsindən biri H.Əliyevin adını daşıyır. Bu, xalqın Ulu Öndərə olan sevgisinin, mənəvi borcunun təcəssümüdür.



**FİDAN YUSİFOVA,**
***AİI-nin Magistratura və Doktorantura şöbəsinin müdiri***

Ümummilli lider hakimiyyəti ərzində İslam dininin Azərbaycan cəmiyyətində oynadığı rola qayğısını, diqqətini azaltmamışdır. 8 aprel 1998-ci ildə Mir Mövsüm Ağa ziyarətgahında Qurban Bayramı münasibətilə baş tutan görüşdə bildirmişdir: "İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim sərvətimizdir... Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".

Hələ Sovetlər dönəmində Ulu Öndər İslamşünaslıq elminin Azərbaycanda dərindən araşdırılmasının tərəfdarı idi. Ölkədə bu sahədə alimlərin az olmasına, bu elmin araşdırılmasına yetərincə diqqət yetirilməməsinə səbəb kimi, siyasi-ideoloji şərtləri göstərən Ümummilli Lider bu problemə belə diqqət çəkmişdir: "Sovet hakimiyyəti illərində Azərbaycanın özündə, demək olar ki, islamşünaslar çox az idi, bəlkə də yox idi. Bunun da səbəbini sizə deyim; məsələn: keçmiş Sovetlər İttifaqında islamşünaslar, əsasən, Moskvada idilər. Çünki İslama mən dediyim həmin kommunist ideologiyası tərəfindən o qədər mənfi münasibət var idi ki, İslama mənsub olan alimlərin özləri İslamşünaslıqla məşğul olmaqdan çəkinirdilər, qorxurdular. Digər tərəfdən də hesab edirdilər ki, bu, dünya elmi üçün o qədər də əhəmiyyətli bir sahə deyildir, yaxşı olar ki, başqa bir sahə ilə məşğul olsunlar".

İllərsonra Azərbaycan öz layiq olduğu müstəqilliyini qazandıqdan sonra, Vətənimizdə dövlət və din münasibətləri ni qaydaya salmaq, dinlər və millətlər arasında qurulacaq yeni dialoqun genişlənməsi üçün geniş imkanlar yaradılmışdır. Dinlərarası və millətlərarası dialoqun inkişaf etdirilməsi üçün dünya və beynəlxalq hüquq normalarına əsaslanan qanunvericilik bazası yaradılmışdır. Ulu Öndər Heydər Əliyev dövlət və dini qurumlar arasında əlaqələrin hüquqi tərəflərini belə şərh edirdi:

"Azərbaycan öz Konstitusiyasına görə, həm də dünyəvi bir dövlətdir. Dövlət ilə dini qurumlar arasındakı münasibətlər Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəaları ilə, "Dini etiqad azadlığı haqqında" qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir. Biz dini, ilk növbədə, mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz bir hissəsi kimi qəbul edirik".

Azərbaycanda dövlətin din siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə Ulu Öndər H.Əliyevin təşəbbüsü ilə 2001-ci ilin iyununda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır.

Bu gün komitə ölkəmizdə mövcud olan dini strukturların fəaliyyətinin tənzimlənməsini, eyni zamanda, dövlətin din siyasəti sahəsində müxtəlif funksiyaları həyata keçirir.

Ulu Öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər sistemini ehtiva edən ənənələr hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğur və sevgi ilə davam etdirilir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun, həmçinin Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu siyasətin bariz nümunəsidir.

Bu gün təsadüfi deyildir ki, Azərbaycanda bütün dinlərin nümayəndələri - müsəlman, xristian, yəhudilər əsrlərdir, sülh və qardaşlıq şəraitində yaşayır. Dini dözümlülük başqaları üçün hüquqi norma, bizim üçünsə həyat tərzidir, tolerantlıq xalqımıza görə mədəniyyət və mənəviyyat məsələsidir. Təsadüfi deyildir ki, düz, 10 il sonra - 2008-ci ilin 12 iyulunda Bibiheybət ziyarətgah-kompleksinin yenidən istifadəyə verilməsi mərasimində Prezident İlham Əliyev qeyd etmişdir: "Biz çox şadıq ki, Azərbaycanda bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, öz doğma Vətəninin inkişafına töhfələrini verirlər. Bu, bizim böyük üstünlüyümüzdür, böyük sərvətimizdir. Azərbaycan çoxmillətli ölkədir, çoxkonfessiyalı ölkədir. Bizim təcrübəmiz, mən bunu tam qətiyyətlə deyirəm, bizim təcrübəmiz, artıq başqa ölkələrdə öyrənilir, beynəlxalq təşkilatlarda diskussiyalar mövzusuna çevrilir və gələcəkdə, əlbəttə ki, Azərbaycanın tolerantlıq məkanı kimi rolu dünya işlərində, dünyada gedən proseslərdə artacaqdır. Biz öz milli köklərimizə, dini köklərimizə qayıtmışıq. Azərbaycan xalqını, azərbaycanlıları bütün dövrlərdə, müstəqil olmadığımız dövrlərdə bir millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olubdur, milli-mənəvi dəyərlərimiz olubdur, Ana dilimiz olubdur, bizim dinimiz olubdur. Biz bütün başqa dinlərə hörmətlə yanaşırıq və hesab edirik ki, dünyada bütün dinlərə hörmətlə yanaşılmalıdır".

Hər birimiz böyük qürur hissi ilə qeyd edə bilərik ki, Ümummilli Lider Azərbaycan tarixində ən görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət - Heydər Əliyev dövlətçilik məktəbinin qurucusudur.

Prezident İlham Əliyevin nitqi də bir daha sübüt edir ki, bu gün ölkədə Heydər Əliyevin dövlətçilik ideyaları, siyasi irsi layiqincə davam etdirilir və hələ çox uzun illər millət, xalq bu ideyaya, bu dəyərlərə sadiq qalacaqdır.

# “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu



### Beynəlxalq Simpoziumun iştirakçıları Fəxri xiyabanda

11 iyul 2019-cu il tarixdə Azərbaycan İlahiyyat İnstitutu (Aİİ), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu öz işinə başlayıb.

Öncə Simpozium iştirakçıları Fəxri xiyabana gələrək, Ümummilli Lider, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül çələngləri düzüblər. Eyni zamanda, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da ruhu anılıb, məzarı üzərinə tər çiçəklər qoyulub.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər çiçəklər düzüblər.

Məlumat üçün bildirək ki, “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu 11-12 iyul 2019-cu il tarixdə keçirilib. İkigünlük Simpozium açılış mərasimi və panellərlə davam etdirilib. Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Moldova, ABŞ, Avstraliya, Misir, Səudiyyə Ərəbistanı və Qafqazda İslam sivilizasiyası mövzusu üzrə fəaliyyət göstərən alim, tədqiqatçı və ekspertlər Simpoziumda məruzələrlə çıxış ediblər.

“İslam Sivilizasiyası Qafqazda” I Beynəlxalq Simpoziumu Ulu Öndər Heydər Əliyevin 22 fevral 1998-ci il 755 nömrəli Sərəncamına əsasən, 9-11 dekabr 1998-ci il tarixdə Bakıda keçirilib.

“İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunda 100-dən çox iştirakçının məruzəsi 11 paneldə - “İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri”; “Qafqazda İslam elmlərinin inkişafı”; “Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı”; “Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu”; “Qafqazda İslamın yayılması”; “Qafqazda multikulturalizm”; “İslam Sivilizasiyası Qafqazda” araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər; tarixi mənbələr; sənədlər və artefaktlar; mövzu üzrə akademik əməkdaşlıq”; “Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu”; “Çar Rusiyasının Qafqazda İslam siyasəti”; “Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu” mövzularında dinlənilib.



### Azərbaycan İlahiyyat İnstitutunu ziyarət

“İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun iştirakçıları Azərbaycan İlahiyyat İnstitutunu (Aİİ) ziyarət ediblər.

Aİİ rektoru Ceyhun Məmmədov qonaqları salamlayaraq, onları ali təhsil müəssisəsində görməkdən məmnunluğunu ifadə edib. İnstitut rəhbəri ümummilli lider Heydər Əliyevin ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində gördüyü misilsiz işlər haqqında məlumat verib.

C.Məmmədov Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında həyata keçirdiyi din siyasətini hazırda Prezident İlham Əliyevin böyük uzaqgörənliklə davam etdirdiyini nəzərə çatdırıb. Qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması da bu siyasətin uğurlarının məntiqi davamıdır.

Ali təhsil müəssisəsi haqqında məlumat verən rektor vurğulayıb ki, İnstitutda təhsil tam ödənişsizdir. Belə ki, Aİİ-də təhsil alanlar dərslik, yemək, geyim, yataqxana xərcləri ilə təmin olunurlar.

C.Məmmədov bildirib ki, İnstitutda bütün dinlərin tarixi, inanc və ibadət sistemi tədris olunur. Eyni zamanda, ingilis və ərəb dilləri müasir metodlar əsasında - 4 dil bacarığının (oxuma, dinləmə, danışma, yazma) inkişafı istiqamətində tədris edilir.

Aİİ rektoru qeyd edib ki, İnstitut xarici ölkə universitetləri ilə əlaqələrin qurulmasında maraqlıdır. İlahiyyat sahəsində ixtisaslaşmış bir çox xarici ölkə universitetləri ilə əməkdaşlıq protokollarının imzalandığını vurğulayan rektor diqqətə çatdırıb ki, əsas məqsəd qarşılıqlı mübadilə proqramları vasitəsilə tədris metodunun və təcrübənin öyrənilməsidir.

Simpozium iştirakçıları səmimi qarşılanmaya görə, Aİİ rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Həmçinin Azərbaycanda mövcud tolerant mühitin canlı şahidi olduqlarını qeyd ediblər. Vurğulanıb ki, Azərbaycanda mövcud dini tolerantlıq və mədəniyyətlərarası dialoq mühiti istiqamətində həyata keçirilən ardıcıl siyasətin hazırda bütün dünyada örnək kimi qəbul edilməsi təsadüfi deyil. Azərbaycan İlahiyyat İnstitutunun açılmasını, həmçinin burada bütün dinlərin tədris olunmasını yüksək qiymətləndiriblər.

Daha sonra qonaqlar Azərbaycan İlahiyyat İnstitutu ilə tanış olublar. Aİİnin fəaliyyət istiqamətləri, məqsədləri haqqında geniş məlumat verilib. Dərslərin müasir avadanlıqlarla tədris olunduğu diqqətə çatdırılıb. Aİİ-nin kitabxanasını ziyarət edən Simpozium iştirakçılarına fondda 16000-dən çox kitabın olması barədə məlumat verilib.

Görüşdə əməkdaşlıq əlaqələrinin qurulması, qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi aparılıb.

### Beynəlxalq Simpoziumun açılışı

11 iyul 2019-cu il tarixdə Bakı daha bir möhtəşəm tədbirə ev sahibliyi etdi.




Dünyanın və ölkəmizin müxtəlif guşələrindən “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunda iştirak etmək üçün şəhərimizə xeyli qonaq dəvət olunmuşdu. Onlar öncə Azərbaycanın tarixi, dini abidələrinin fotolarından ibarət sərgi ilə tanış olublar.

Daha sonra “Park inn Otel”in böyük zalında Simpozium öz işinə başlayıb. Azərbaycan Respublikası Prezidenti Administrasiyası Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Simpozium iştirakçılarına Prezident cənab İlham Əliyevin ünvanladığı Müraciəti oxudu.

Giriş nitqi ilə Aİİ rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov çıxış edib. İslamın Qafqaz xalqlarının həyatında tutduğu əhəmiyyətli mövqeyə, həmçinin qafqazlı alim və mütəfəkkirlərin İslam sivilizasiyasına bəxş etdikləri töhfələrə toxunub. İslama dərindən bələd olan ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə 9-11 dekabr 1998-ci il tarixdə Bakıda “İslam Sivilizasiyası Qafqazda” I Beynəlxalq Simpoziumunun keçirildiyini nəzərə çatdırıb. Qeyd edib ki, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dini dəyərlərə hörmət və qayğını, həmçinin dinlərarası tolerantlıq və multikultural ənənələrin təbliğinə əsaslanan bu nəcib siyasəti hazırda Respublika Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

C.Məmmədov Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ideyalarını təbliğ və tətbiq edən nümunəvi bir ölkə kimi tanındığını vurğulayıb. Bildirib ki, bu ideyaların təbliğində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri xüsusi olaraq qeyd edilməlidir.

Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin mövcud olduğunu bildirən C.Məmmədov ölkəmizdə çox sayda məscid, kilsə və sinaqoqun dövlət vəsaiti hesabına tikilib təmir edildiyini diqqətə çatdırıb: “Qafqazın ən böyük məscidi olan “Heydər Məscidi”nin inşa edilib inanclı insanların istifadəsinə verilməsi, din sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, dini-mənəvi sferaya dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bunun ən bariz nümunələrindəndir”.

⇨ Davamı 5-ci səhifədə

# "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu

Əvvəli 4-cü səhifədə

C.Məmmədov İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus yerini vurğulayaraq, məşhur İslam alimləri haqqında bəhs edib.

On bir ölkədən gələn alim və tədqiqatçıların iştirak etdiyi tədbirin Qafqazda İslam sivilizasiyasının tədqiqinə öz töhfəsini verəcəyini vurğulayan AİI rektoru Simpoziumun işinə uğurlar arzulayıb.

İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (İRCICA) Baş direktoru Halit Eren qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan, Azərbaycanın rolu xüsusi vurğulanmalıdır.

Halit Eren daha sonra bildirib ki, Azərbaycan İslam dünyasının bir parçası olduğundan, onun mədəniyyətində ərəb, İslam rəmzləri daha gözəçarpandır. Ona görə də İslam sivilizasiyasının Qafqazda yayılması, ilk növbədə, Azərbaycanla bağlı olduğundan, belə bir tədbirin burada reallaşması çox məqsədəuyğundur.

H.Eren "İslam Sivilizasiyası Qafqazda" mövzusunda ikinci dəfə keçirilən Beynəlxalq Simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb.

Millət vəkili, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili akademik Gövhər Baxşəliyeva "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib. Qeyd edib ki, İslam dini Azərbaycanda yayılmağa başlandığı andan etibarən dərin kök salıb, insanların davranışına, düşüncəsinə, mənəviyyat və mədəniyyətinə müəyyənedici təsir göstərib.



Qafqazın nadir bölgə olduğunu vurğulayan G.Baxşəliyeva bildirib ki, bu region öz təbiətinə, coğrafi quruluşuna və qədim zamanlardan məskunlaşmış, minillər boyu yaşamış insanlarının xüsusiyyətlərinə görə xarakterizə oluna bilər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonaqları salamlayaraq, konfrans iştirakçılarına uğurlar arzulayıb. Bildirib ki, Qafqazda İslamın yayılması və inkişaf etməsi bölgə xalqlarının tarixinin böyük bir hissəsini təşkil edir.

M.Qurbanlı İslam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələri xüsusi vurğulayıb. Qeyd edib ki, Qafqaz xalqlarının, demək olar ki, əksəriyyəti İslam dininə ibadət edir. Daha sonra bildirib ki, İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik, inkişaf, islami dəyərlər bəxş edib. İslamın dini-mənəvi dəyərlərinin Qafqaz xalqlarının həyatında mühüm rol oynadığını diqqətə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev vurğulayıb ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və təbliği, dini radikalizmə qarşı mübarizə istiqamətində aparılan işlər, əldə olunan uğurlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin birgə əməkdaşlığı və fəaliyyəti nəticəsində mümkün olub. S.Musayev dini konfessiyalara ulu öndər Heydər Əliyevin diqqət və qayğısından danışaraq bildirib ki, müstəqil Azərbaycanda tolerantlığın və dinlərarası dialoqun əsasları məhz Ümummilli Lider tərəfindən müəyyənləşdirilib. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

Daha sonra çıxış edən "29 Mayıs" Universiteti Himayəçilər Şurasının sədri, professor Tayyar Altıkulaç, "İzmir Katip Çelebi" Universitetinin rektoru, professor Saffet Köse, Rusiyanın Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov II Beynəlxalq Simpoziumun Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması istiqamətində xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıblar.

Qonaqlar, həmçinin Simpoziumun keçirilməsini aktual hesab edib və təşkilatçılara öz minnətdarlıqlarını bildiriblər.

### Beynəlxalq Simpozium panellərlə davam edib

12 iyul 2019-cu il tarixdə "Qafqazda multikulturalizm" mövzusunda təşkil edilən panel Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov və Qriffis Universiteti Mədəniyyət və Dinlərarası Dialoq Mərkəzinin direktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Brian J. Adamsın moderatorluğu ilə keçirilib.

Paneldə "Müasir dövrdə - XIX-XX əsrin I rübündə Müsəlman dünyasında həyata keçirilən islahatlarda Qafqazın müsəlman türklərinin və Rusiyanın Avropa hissəsinin rolu"; "Udi xristian icmasının timsalında Azərbaycan multikulturalizmi: tarix və müasirlik"; "Qafqaz regionunda dialoq: müəyyənedicilər, müdafiəçilər və inkişaf etdirənlər"; "İslam dünyası və Qərb dünyası arasında dialoqun xüsusiyyətləri"; "Sülhün təmin olunmasında din-düşüncə əlaqələrinin aktuallığı"; "Ənənələr və islam prizmasından baxıldıqda, Şimal-Qərbi Qafqaz gənclərinin dəyər oriyentasiyaları"; "Qafqaz: xalqların və dinlərin mozaikası"; "Ünsiyyət fəlsəfi problem kimi"; "Müqəddəs Cərcic ziyarətgahı multikulturalizm nümunəsi kimi"; "Orta əsrlərdə Azərbaycanda dini dözümlülük Avropa missionerlərinin əsərlərində" mövzularında məruzələr dinlənilib.

"İslam Sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər; tarixi mənbələr; sənədlər və artefaktlar; mövzu üzrə akademik əməkdaşlıq" mövzusunda baş tutan ikinci paneldə moderatorluğu millət vəkili, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva və "əl-Fərabi" Qazax Milli Universitetinin professoru Orazgul Muxatova edib.

Məruzəçilər "AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda son iki onillikdə islamşünaslıq tədqiqatlarına dair"; "Alaniya-Osetiyada İslamın tarixi: əsas mərhələlər"; "Orta əsrlər azərbaycanlı müdərrislərin yetişməsində yerli və İslam dünyasının digər elm xadimlərinin rolu"; "SSRİ-nin dağılmasından sonra, Şimali Qafqazda İslamın yayılması: yeni reallıqlar"; "Nadir şahın din siyasətinə Osmanlı Dövlətinin münasibəti"; "Protestan diplomasisi'nin Kafkasya sahnesinden bir kesit: 1919-1920, Türkiye-Azerbaycan gizli antlaşmaları hakkındaki iddialar üzerine"; "İslam mədəniyyətində millilik və dünyəvilik məsələləri"; "Nadir şah Əfşarın İslam dininə münasibətə baxışlarına dair"; "Sovet hakimiyyətinin 1920-1940-cı illərində İslam dininə və onun komponentlərinə münasibət (Şəki qəzasının timsalında)" mövzularında çıxışlar ediblər.

"Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu" mövzusunda təşkil olunan üçüncü paneldə REA Dağıstan Mərkəzi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu Şərq əlyazmaları şöbəsinin müdiri, professor Murtezali Hacıyev və REA Dağıstan Elmi Mərkəzi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Şamil Şıxəliyev moderatorluq ediblər.

Günün birinci hissəsində baş tutan sonuncu paneldə "Elxanilər dövründə Naxçıvan şəhər mədrəsələri"; "İnquşetiyada müsəlman təhsil sistemi"; "Güney Kafkasya'dan Balkanlara ve arap topraklarına yayılan bir sufi gelenek: halvetiyye'nin Ramazaniyye ve Şa'baniyye kolları"; "Orta əsrlərin Azərbaycan şəhərlərində fəaliyyət göstərən mədrəsələr"; "XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda təhsil islahatları: "Üsuli-cədid və Azərbaycan-rus məktəbləri"; "Azərbaycanın tarixi Zəngəzur qəzasında dini və dünyəvi təhsil (XIX əsrin sonu XX əsrin 20-ci illəri)"; "Ənənəvi ərəb dili qrammatikasının tədrisində Abdulqahir əl-Curcaninin "Avamil əl-Miə" əsəri mötəbər mənbə kimi (Qafqaz İslam təhsil müəssisələri nümunəsində)"; "Qafqazda dini təhsil sahəsində İrəvan məktəbinin rolu: İrəvanilər sülaləsinin nümunəsində" mövzularında məruzələr dinlənilib.

Qeyd edək ki, II Beynəlxalq Simpoziumda 100-dən artıq məruzəçinin çıxışları 11 paneldə dinlənilib.

Konfransın məqalələrinin xülasələri "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun materialları (Tezislər)" başlığı altında kitab şəklində Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərinə tərcümə olunaraq dərc edilib.

Davamı 6-cı səhifədə

# “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu

⇨ Əvvəli 5-ci səhifədə

“Çar Rusiyasının Qafqazda İslam siyasəti” mövzusunda təşkil edilən panel 12 iyul 2019-cu il tarixdə Gürcüstan İliya Dövlət Universitetinin müəllimi, G.Sereteli adına Şərqşünaslıq İnstitutunun direktoru, professor George Sanikidze və Azərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri dosent Elnurə Əzizovanın moderatorluğu ilə keçirilib.

Paneldə “XX əsrin əvvəllərində müsəlman cəmiyyəti və onun Qafqazda və Avropa Rusiyasındakı islahatlar planı”; “Rus çarizminin Azərbaycanda müsəlman ruhaniliyinin təşkili istiqamətində strateji planları”; “Şimali Azərbaycanda Çar Rusiyasının din siyasətinin sosial-psixoloji aspektləri”; “Çar Rusiyasının Azərbaycan türklərinin assimilyasiyasına yönələn anti-İslam siyasəti”; “1801-1917-ci illərdə çarizmin Cənubi Qafqazda İslam siyasəti (arxiv materialları əsasında)”; “XIX-XX əsrin əvvəllərində Azərbaycanda İslam dininin vəziyyəti haqqında” mövzularında məruzələr dinlənilib.

“Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu” mövzusunda baş tutan ikinci paneldə moderatorluğu Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov və İstanbul Sabahattin Zaim Universiteti Tarix fakültəsinin müəllimi, professor Muhammed Harb edib.

Məruzəçilər “Həsən Məlik Zərdabinin İslama dair görüşləri”; “Hikmətli mütəaliyə fəlsəfi cərəyanının azərbaycanlı nümayəndələri”; “İslam sivilizasiyasının inkişafında Azərbaycanın rolu”; “Orta əsrlər müsəlman Şərqində hürufilik təliminin ideya-siyasi və fəlsəfi aspektlərinə yenidən baxış”; “Əbdürrəşid İbrahim və Azərbaycan mətbuatı (1903 - 1905)”; “Məhəmməd Əmin Sədrəddin Şirvani və əxlaq fəlsəfəsi”; “Azərbaycan maarifçilik hərəkatında maarifçi qadınlar”; “Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu”; “Azərbaycan İslam fəlsəfəsinin bir bölgəsi kimi” mövzularında çıxışlar ediblər.

Qeyd edək ki, II Beynəlxalq Simpoziumda 100-dən çox məruzəçinin çıxışları 11 paneldə dinlənilib.

### Beynəlxalq Simpozium başa çatdı

12 iyul 2019-cu il tarixdə bağlanış mərasimində çıxış edən AİI rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun iştirakçılarını təbrik edib. Qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən Beynəlxalq Simpozium öz işini uğurla yekunlaşdırıb.

C.Məmmədov bildirib ki, Simpoziumda Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemləri araşdırıldı. Eyni zamanda, ölkəmizin çoxəsrlik tarixə malik qarşılıqlı hörmətə əsaslanan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti haqqında məruzələr dinlənildi. Məruzəçilər, həmçinin müsəlman ölkələri ilə əlaqələrin inkişafında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən, bu siyasətin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə mövcud olan tolerant və multikultural mühitin dünyada tanıdılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş məruzələrlə çıxış etdilər.






C.Məmmədov, eyni zamanda, Simpoziumda İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus mövqeyindən bəhs edərək, məşhur İslam alimləri haqqında məruzələrin də dinlənildiyini diqqətə çatdırıb.

Daha sonra AİI rəhbəri, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpozium iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış Müraciətini oxuyub.

**Müraciətdən deyilir:**

“Möhtərəm cənab Prezident!

11-12 iyul 2019-cu il tarixdə Bakı şəhərində Azərbaycan İlahiyyat İnstitutu (AİI), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilmiş “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumuna göstərdiyiniz hərtərəfli diqqətə, eləcə də tədbir iştirakçılarına ünvanladığınız Müraciətə görə Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk!

İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan tarixən müsəlman sivilizasiyasının yaranması və tərəqqisində mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Bəhmənyar Azərbaycani, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Seyid Yəhya Şirvani, Məhəmməd Füzuli və yüzlərlə başqa azərbaycanlı mütəfəkkirlər müsəlman aləmində elmi, fəlsəfi və ədəbi düşüncənin inkişafında müstəsna xidmətlər göstərmişlər. İslam mədəniyyəti Qafqazın digər bölgələrinə məhz Azərbaycandan yayılmışdır.

Ulu Öndər Heydər Əliyev “Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır” söyləməklə İslam sivilizasiyasının Qafqazda bərqərar olmasında Azərbaycanın oynadığı əhəmiyyətli rola diqqət çəkmişdir. İslamın Qafqazda yaşayan xalqların həyatındakı tarixi rolu və əhəmiyyətinə dərindən bələd olan Ümummilli Liderin birbaşa təşəbbüsü və iştirakı ilə 9-11 dekabr 1998-ci il tarixdə Bakıda “İslam Sivilizasiyası Qafqazda” Beynəlxalq Simpoziumu keçirilmişdir.

11-12 iyul 2019-cu il tarixdə Bakıda keçirilən “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpozium da məhz Heydər Əliyevin misilsiz ideyalarının həyata keçirilməsinə xidmət edir. Bu Simpoziumun keçirilməsi Azərbaycan Dövlətinin və şəxsən Sizin İslam mədəniyyətinə verdiyiniz qiymətin əyani təzahürüdür.

Müasir dövrdə Sizin rəhbərliyinizlə sosial-iqtisadi baxımdan sürətlə inkişaf edən Azərbaycan elm və mədəniyyət sahəsində də çoxsaylı nailiyyətlərə imza atır. Azərbaycan, artıq multikultural dəyərlərin xalq və dövlət səviyyəsində dəstəkləndiyi və beynəlxalq miqyasda təbliğ olunduğu ölkə kimi tanınır. 2016-cı ili “Multikulturalizm İli” elan etməyiniz Sizin bu ali dəyərlərə yüksək münasibətinizin bariz nümunəsidir. Həqiqətən də qloballaşan dünyada monokultural mədəniyyət anlayışının multikultural düşüncə ilə əvəzlənməsi, mədəniyyətlərin öz “getto”larından çıxması bir zərurətə çevrilmişdir. Bu baxımdan, Azərbaycan Dövlətinin sivilizasiyalararası və mədəniyyətlərarası əlaqələrdə multikulturalizmi önə çəkməsi zamanın çağırışları ilə səsləşir.

2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi haqqında 10 yanvar 2017-ci il tarixli Sərəncamınız İslam dünyasının ən böyük ehtiyacını çox dəqiqliklə müəyyənləşdirdiyinizi göstərir. Bu Sərəncam dünyada getdikcə güclənən ksenofob və islamofob qüvvələrə tutarlı cavabdır, eyni zamanda, 2016-cı ilin “Multikulturalizm İli” elan olunması barədə 11 yanvar 2016-cı il tarixli Sərəncamınızın məntiqi davamıdır. Azərbaycan həm multikultural dəyərlərin tətbiqi və təbliği, həm də müsəlman aləmində vəhdət və qardaşlıq ideyalarının yayılması baxımından nümunəvi ölkədir.

Dünyada sülh, əmin-amanlıq və tolerantlığın carçısı olan Azərbaycan təəssüf ki, bu dəyərləri heçə sayan Ermənistanın təcavüzü ilə üz-üzə qalmış, torpaqlarının 20 faizi işğal edilmiş, bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvalarından didərgin salınmışdır. İşğal altındakı torpaqlarda yüzlərlə İslam mədəniyyəti nümunəsi məhv edilmiş, məscid və türbələr dağıdılmışdır. Simpozium iştirakçıları olaraq, dünya ictimaiyyətinin bu vandalizmə biganə qalmayacağına, Azərbaycanın haqlı səsinə səs verəcəyinə ümidvarlığımızı bildiririk. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəkdir.

**Möhtərəm cənab Prezident!**

Biz, “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun iştirakçıları bu beynəlxalq tədbirə göstərdiyiniz qayğı və diqqətə görə, Sizə bir daha öz dərin minnətdarlığımızı bildirir, Azərbaycanda və dünyada sülh və əmin-amanlığın qorunması, ölkəmizin inkişafı və çiçəklənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayırıq”.

Tədbirin sonunda Simpozium iştirakçılarına sertifikatlar təqdim olunub.

⇨ Davamı 7-ci səhifədə

# "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu

⇨ Əvvəli 6-cı səhifədə

### Beynəlxalq Simpoziumun təşkilatçıları mətbuat konfransı keçiriblər

11-12 iyul 2019-cu il tarixdə ölkəmizin paytaxtında təşkil olunan "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun yekun mətbuat konfransı keçirilib.

Mətbuat konfransında Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən Beynəlxalq Simpoziumun məqsədləri barədə məlumat verilib. Simpozium Qafqazda İslam sivilizasiyasının yayılması dövrünün elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması, eyni zamanda, ölkəmizin çoxəsrlik tarixi keçmişə malik qarşılıqlı hörmətə əsaslanan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühitinin dünyaya tanıtdırılması məqsədi daşıyır.

Qeyd olunub ki, "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu nəinki Azərbaycan, eyni zamanda, bütün region üçün əlamətdar hadisədir. Simpoziumda dəyərli alimlərin Qafqazda İslam mədəniyyəti, tarixi, dini abidələri, din təhsili mövzularında məruzələri dinlənilib.

"İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun 9-11 dekabr 1998-ci il tarixdə Bakı şəhərində keçirildiyini vurğulayan təşkilatçılar bu tədbirin Ulu Öndər Heydər Əliyevin birbaşa təşəbbüsü və dəstəyi ilə baş tutduğunu nəzərə çatdırıblar.

Ümumilikdə, on iki ölkədən - Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, Avstraliya, Misir, Səudiyyə Ərəbistanı kimi xarici ölkə universitetlərindən Qafqazda İslam sivilizasiyası mövzusu üzrə çalışan alim, tədqiqatçı və ekspertlərin 12 paneldə 100-dən çox məruzəsi dinlənilib.

Tədbirdə Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərinə tərcümə olunaraq dərc edilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun materialları (Tezislər)" başlıqlı kitab təqdim olunub. Qeyd olunub ki, Simpoziumun materialları da qısa zaman kəsiyində qeyd olunan dillərə tərcümə olunaraq nəşr ediləcək.




Sonda KİV nümayəndələrinin çoxsaylı suallarını cavablandırılıb.

### Heydər məscidini ziyarət



12 iyul 2019-cu il tarixdə "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçıları Heydər məscidini ziyarət ediblər.

Qonaqlara məlumat verilib ki, 2014-cü ilin dekabrında açılışı keçirilən dini ibadət müəssisəsi Qafqazın ən böyük məscididir. Milli-mənəvi irsə böyük diqqət və qayğı ilə yanaşan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahəni əhatə edir. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, ornamentlərin zənginliyi fasadda arxitektura harmoniyası yaradıb, həmçinin 95 metr hündürlüyündə 4 minarə inşa olunub. Məscidin daxili xüsusi bəzək elementləri ilə dizayn edilib, günbəzin kənarlarına Quran ayələri yazılıb. Əlli beş metr ucalığında olan baş günbəz, o cümlədən, hündürlüyü 35 metrə çatan ikinci günbəz məscidə xüsusi gözəllik verir.

Ziyarət zamanı vurğulanıb ki, Prezident İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi gələrək görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib, məscidin açılışında ailəsi ilə bərabər iştirak edib. Həmin mərasimdə Şimali Qafqazın müftiləri fəxri qonaq qismində iştirak ediblər.

Qonaqlara, eyni zamanda, məsciddə qılınan Vəhdət namazları barədə məlumat verilib. Heydər məscidində Vəhdət namazının ənənə halı aldığı, dini dözümsüzlüyün, irqi ayrıseçkiliyin və islamofobiyanın geniş yayıldığı müasir dövrümüzdə bunun dünyaya həmrəylik və sülh mesajı olduğu nəzərə çatdırılıb.

### "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda

"İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçıları 13 iyul 2019-cu il tarixdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış oldular.

Qoşa Qala küçəsindən başlayan gəzinti zamanı qonaqlara tarixi heykəltəraşlıq binaları, meydan və Qala divarları barədə məlumat verilib. Qonaqlar Sıratağlı Dini-Memarlıq Kompleksi ("Bazar Meydanı") ərazisindəki müxtəlif dövrlərə aid bədii daşyonma sənət nümunələrini müşahidə ediblər. Karvansara ilə tanışlıq zamanı bu abidələrin Azərbaycanın şərq ölkələri ilə zəngin tarixi, iqtisadi-mədəni əlaqələrinin göstəricisi olduğu bildirilib.

II Beynəlxalq Simpozium iştirakçıları İçərişəhərin məscidlərindən biri, 1169-cu ildə usta Nəcəf Aşur İbrahim oğlu tərəfindən inşa edilmiş Aşur məscidi və yaxınlıqdakı Cümə məscidini ziyarət ediblər. Qeyd olunub ki, 2016-cı ildə Cümə məscidinin XV əsrə aid olan Abşeron əhəng daşından tikilmiş minarəsi bərpa və konservasiya edilib.

İçərişəhərin dini mədəniyyətini əks etdirən tarixi-memarlıq abidələri vaxtilə xalqın ictimai inkişafına təsir göstərmişdir. Belə ki, Orta əsrlərdə elm və təhsil sisteminin inkişafında məscidlər mühüm rol oynamışdır. Ərazidə yerləşən dini abidələr memarlıq quruluşuna görə fərqlənir.



Sonda Beynəlxalq Simpozium iştirakçıları "Qız qalası"nın önündə xatirə şəkli çəkdiriblər.

Qeyd edək ki, "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu 11-12 iyul 2019-cu il tarixdə ölkəmizin paytaxtında keçirilib.

Simpoziumda dünyanın qabaqcıl müəssisələrində çalışan alim, tədqiqatçı və ekspertlərin 100-dən artıq məruzəsi dinlənilib.

Simpoziumun materialları kitab şəklində çap olunacaq.

# "Sızlar yada düşəndə ürəyimin telləri, O mehriban, o əziz tələbəlik illəri"...

**Maraqlı səslənir - yeni yaradılmış təhsil ocağının artıq məzunları var. Bəli, bu belədir. Bu gün Azərbaycan ilahiyyat elminə yeni töhfələr verən Azərbaycan İlahiyyat İnstitutu Respublika Prezidentinin 09 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradılıb. Dövlət-din münasibətlərinin tənzimlənməsində yeni mərhələ olan bu ali təhsil ocağı ilahiyyatı bir elm kimi öyrədən, cəmiyyəti dinə kortəbii münasibətdən xilas edəcək kadrlar yetişdirir. Azərbaycan İlahiyyat İnstitutu Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin bazasında yaradılsa da, müstəqil ali təhsil ocağı kimi fəaliyyət göstərməsində məqsəd bu sahədəki problemi daha geniş diapazonda çözməkdir. Ölkə rəhbəri insanlarımızın ən incə nöqtəsi olan din sahəsinə qayğını xüsusi diqqətdə saxlayır.**





İyunun 27-də Azərbaycan İlahiyyat İnstitutunda daha bir özəl gün yaşandı. Bir ildir fəaliyyət göstərən İnstitutda ilk dəfə idi ki, məzunlarla görüş keçirilirdi. Üzlərdə sevinc, qəlblərdə fərəh, xüsusi qürur hissi ilə görüşə toplaşanlar dünən səsi auditoriyalardan tələbə kimi gələnlər idilər. Semestr imtahanları vaxtı yuxusu ərşə çəkilmiş gecələrin acısı da, şirin xatirələri də; imtahandan üzüağ çıxanda yaşadıqları sevinc də, kəsri olanda keçirdiyi iztirablar da; əziz müəllimlərinin tələbkarlıqları, diqqət və qayğıları yada düşürdü... Bir-birləri ilə sanki çoxdan görüşmürlərmiş kimi salamlaşırdılar. O gözəl illərdən keçmişdə danışırdılar artıq...

Dövlət Himninin sədaları ətrafa dalğa-dalğa yayıldı. İlahiyyatçılar ayaqüstə himni ifa etdilər. Bu sevincə, müstəqilliyə, azadlığa, işıqlı sabaha və nurlu gələcəyə çağırış nidaları olan möhtəşəm musiqi onlara çox məqamları xatırlatdı. Bu Vətən nələr gördü, nələrdən keçdi?! İslam dininə münasibət necə idi, bu gün hansı səviyyədə inkişaf edir?..

Gecəni giriş sözü ilə Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov açdı. Ulu Öndər Heydər Əliyevin təhsilin inkişafına diqqət və qayğısından, bu siyasi xətti hazırda cənab Prezident ilham Əliyevin uğurla davam etdirməsindən danışdı. Rektor İnstitutun yaranma tarixindən, az müddət ərzində görülən işlərdən, tələbələrin dünyagörüşünün zənginləşdirilməsi istiqamətində İnstitutda keçirilən seminarlardan, bölgələrə təşkil olunan ekskursiyalardan, İnstitutun təcrübə mübadiləsi məqsədilə xaricə səfərlərindən danışdı. Rektor, həmçinin yeni ilahiyyatçılar nəsli yetişdirən müəllim kontingentindən, tələbələrlə qurulan ünsiyyətdən, tələbkarlıqla yanaşı, səmimi rəftardan da bəhs etdi.

**Rektor sözünə əlavə edərək dedi:**

- Bu gün İnstitutu on yeddi tələbə, dörd magistrant bitirir. Sabah onların səsi müxtəlif dini qurumlardan, dövlət strukturlarından, eləcə də elm və istehsalatın, xalq təsərrüfatının fərqli sahələrindən gələcək. Çalışdığınız sahədə əldə edəcəyiniz uğurlarla qürurlanacağıq, bu bizim müvəffəqiyyətimiz olacaq, əslində. İnanırıq ki, siz sabahın işgüzar, bacarıqlı və savadlı kadrları olacaqsınız. Hansı bir çətinliyiniz olarsa, imkan daxilində, çalışıb sizə kömək edəcəyik, əziz məzunlar. Bizi hər an yanınızda hiss edin.

İlahiyyat fakültəsinin dekanı fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov, Tədris şöbəsinin müdiri Zərifə Əliyeva, Magistratu-



ra və doktorantura şöbəsinin müdiri Fidan Yusifova çıxış edərək, məzunları ali məktəbi başa vurmaları münasibətilə təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzuladılar.

F.Yusifova ürək sözlərini söyləyərək vurğuladı ki, ölkəmizdə savadlı mütəxəssislərə ehtiyac var: "İnanırıq ki, məzunlarımız nisbətən də olsa, bu boşluğu dolduracaq və dövlət mənafeyini şəxsi maraqlarından üstün tutacaqlar", - deyə bildirib.

Söz məzunlara verildi. Elvin Rəcəbov kürsüyə qalxaraq audito-



riyaya müraciətlə bildirdi:

- Bu gün həyatımızda əlamətdar günlərdən biridir. Biz kamil mütəxəssis kimi həyatın qoynuna atılırıq. Dördillik tələbəlik illəri o qədər də hamar olmadı. İmtahan həyəcanları keçirdik, uğurlarımıza sevindik, uğursuzluqlarımıza kədərləndik...

Son bir ili AİI-də təhsil almağımız bizi ali məktəb həyatına daha da bağladı. Burada rəhbərliyin və müəllimlərin səmimiyyəti, bizə arxa-dayaq olmaları, bəzən də valideyn qayğısı göstərmələri bizi təhsil uğurları əldə etməyə daha da ruhlandırırdı. Bütün bunlar sabahımız üçün əldə etdiklərimiz oldu. Qarşımıza çıxan hər hansı çətinliyi dəf edəndə, xoş diləklərimiz ünvanınıza səslənəcək, əziz müəllimlərimiz. Var olun!

**Magistrant Nərgizxatun Həsənovaya söz verildi:**

- Əziz müəllimlərimiz, tələbə kimi qarşınızda son çıxışımı edirəm. Bir payız günü bizi ağuşuna alan auditoriyalar indi - yay günündə yola salır. İlk dəfə çalınan o möhtəşəm zəngin sədaları bizi elmin sirlərini öyrənməyə çağırdısa, son dəfə çalınan zəng bizi müstəqil həyata, bildiklərimizi dövlətimizin quruculuğu və xalqımızın mənafeyi naminə sərf etməyə səsləyir.

Mən magistraturanı müvəffəqiyyətlə bitirdim, elmin zirvələrinə doğru bir pillə də yaxınlaşdım. Bu, təkcə mənim uğurum deyil, həm də mənə dərs deyən alim pedaqoqların zəhmətinin bəhrəsidir. Çalışıb elmi işimi davam etdirəcəyəm.

Əziz müəllimlərimiz, sevimli tələbə yoldaşlarımız, həyəcanla qalxıb, sevinə-sevinə düşdüyümüz pillələri bir daha bərabər qalxıb-düşməyəcəyik. Kitabxanada bərabər oturmayacağıq. Bu hisslər bizi kövrəltdiyi qədər məsuliyyətimizi də artırır. Deməli, müstəqil həyata atılmağa layiqik və Azərbaycan İlahiyyat İnstitutu bizə bu həyatın vəsiqəsini verdi. Hər birinizə minnətdarıq, əziz müəllimlərimiz. Haqqınızı bizə halal edin.

**Rəfiqə Nurullayeva auditoriya qarşısında çıxış etdi:**

- Biz dəyərli insanlardan, savadlı alimlərdən dərs aldıq. Hansı vəziyyətdə olmalarından asılı olmayaraq, hər gün zamanında auditoriyaya daxil olan, bizə həm müəllimlik, həm də valideynlik edən gözəl pedaqoqlar, sizin mühazirələrinizi dinləmək, qarşınızda cavab vermək ömrümüzün ən dəyərli anları idi. Üstümüzdə çox böyük haqqınız var. Sizin zəhmətiniz bizim xalqa xidmətimizlə bəhrəsini verəcək. Bacardığımız qədər çalışacağıq ki, əməyinizi itirməyək, başınızı uca edək.

**Məzun gününün aparıcısı Səbinə Ağarzayevanın da çıxışı alqışlarla qarşılandı:**

- Mən bu gün ali məktəbin bakalavr pilləsini başa vururam. Tələbə olduğumuz dövrdə dövlətin bizə yaratdığı şəraitdən maksimum bəhrələndik. Pulsuz təhsil aldıq, dəyərli alimlər bizə dini elmi cəhətdən izah etdi, dövlət-din münasibətlərində inkişafın həyatımıza müsbət təsiri oldu. Multikulturalizmin kök saldığı Azərbaycan Şərqdə tolerant ölkə kimi tanınır. Bunu əxz elədik. Təcrübi fəaliyyə-



timizdə çalışacağıq ki, ictimai mənafeni şəxsi mənafedən üstün tutaq, dövlətin maraqlarına xidmət edək. Bizə dövlət səviyyəsində diqqət və qayğı göstərildiyinə görə, Prezident İlham Əliyevə minnətdarıq, sağ olun cənab Prezident, təşəkkür edirik, hörmətli rektorumuz Ceyhun Məmmədov, minnətdarıq sizə əziz müəllimlərimiz!

Kövrək nidalarla sona yetən Məzun Günü süfrə arxasında davam edib.

**Rəhilə Misirxanlı**

**“ÖLÜM VAR Kİ, HƏYAT QƏDƏR ŞƏRƏFLİ...”**

# Şəhid jurnalistlərimiz

*Səməd Vurğun:*

***“Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan öz vətəndaşlıq hissini dərk edə bilməz”.***








1988-ci ildən başlayan Qarabağ müharibəsində 11 jurnalist erməni terrorçularının hücumuna məruz qalıb. Azadlıq və istiqlaliyyət uğrunda canlarından keçən şəhid jurnalistlərimizdən bir neçəsini xatırlayaq.

**Salatın Əziz qızı Əsgərova (1961-1991).** Bakıda ziyalı ailəsində anadan olan Salatın Əsgərova “Molodejğ Azerbaydjana” qəzetinin müxbiri idi. Qısa müddət ərzində imzası tanınan Salatın Əsgərova hazırladığı reportajlarla müharibənin ən qızğın nöqtələrindən xəbər verirdi. Oxucular onun yeni yazılarını gözləyirdi. 1991-ci il yanvarın 9-u Laçından Şuşaya gedərkən Qaladərəsi kəndi yaxınlığında erməni silahlı qüvvələrinin mühasirəsinə düşən maşın yaxın məsafədən şiddətli atəşə tutuldu. Nəticədə, jurnalist Salatın Əsgərova amansızlıqla qətlə yetirildi. Mərhumun oğlu Ceyhun Əsgərovun gözü yollarda qalır. Anası kimi jurnalist olmağı seçən Ceyhun həmin hadisələr zamanı beşinci sinif şagirdi idi, yaşı az olduğundan, baş verənlərin çox da fərqində deyildi. Poeziyanı, musiqini və kitab oxumağı çox sevərdi Salatın. Şəhid jurnalistimizin məzarı Bakıda Şəhidlər xiyabanındadır. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli Fərmanı ilə Salatın Əziz qızı Əsgərovaya ölümündən sonra, “Azərbaycanın Milli Qəhrəmanı” adı verildi. Hazırda Bakı şəhərində adına bir küçə var. Bakı buxtasındakı gəzinti katerlərindən biri də onun adını daşıyır. “Təfəkkür” Universitetində büstü qoyulan Salatın Əsgərovanın yaşadığı binaya barelyefi vurulub. 1993-cü ildə bəstəkar Elza İbrahimova “Salatın” mahnısını onun əziz xatirəsinə həsr edib. Xalq şairi Nəbi Xəzri Salatın Əsgərova haqqında elegiya-poema yazıb. 2016-cı ildə isə Salatın Əsgərovaya həsr olunmuş qısametrajlı “Vətən üçün gedirəm” filminin təqdimatı keçirilib.

**Alı Mustafa oğlu Mustafayev (1952-1991).** Qazax rayonunun Qazaxbəyli kəndində anadan olan Alı Mustafayev 1969-cu ildə Daşsalahlı kənd orta məktəbini bitirib. 1971-ci ildə həqiqi hərbi xidmətə yollanan Alı 1973-cü ildə əsgəri xidmətini başa vurub, Bakı Elektrik Maşınqayırma Zavodunda əmək fəaliyyətinə başlayıb. O, zavodda işlədiyi müddətdə “Elektrik” qəzetində tez-tez maraqlı yazılarla, şeirlərlə çıxış edirdi. Alı Mustafayev 1976-cı ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub. 1981-ci ildə təhsilini başa vurub, Azərbaycan Dövlət Teleradio Şirkətinin “Xəbərlər” proqramında jurnalist kimi fəaliyyətə başlayıb. Qısa zamanda çalışqanlığı və operativliyi ilə hər kəsin hörmətini qazanan jurnalist çox keçmir, “İlin ən yaxşı jurnalisti”, “Qızıl qələm” mükafatlarına layiq görülür. O, çevik, qorxmaz bir telejurnalist idi, qaynar nöqtələrdən reportajlar hazırlamağa birinci gedərdi. Bir neçə dəfə vertolyot qəzasına düşsə də, təhlükəli ezamiyyətlərə getməkdən çəkinmirdi.

Alı Mustafayev 1991-ci ilin 20 noyabrında Dağlıq Qarabağın Qarakənd kəndi yaxınlığında sülhməramlı nümayəndələri aparan vertolyotun düşmən mərmisi tərəfindən vurulması nəticəsində şəhid oldu. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı Fərmanı ilə Mustafayev Alı Mustafa oğluna ölümündən sonra, “Azərbaycanın Milli Qəhrəmanı” adı verildi. Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən sonra “Respublikanın Əməkdar jurnalisti” fəxri adına layiq görüldü. Bakının Nərimanov rayonundakı 202 saylı orta məktəb, 3-cü mikrorayondakı küçələrdən biri onun adını daşıyır.

**Osman Mirzəhüseyn oğlu Mirzəyev (1937-1991).** Osman Mirzəyev 1937-ci il aprelin 13-də Bakının Keşlə qəsəbəsində dünyaya göz açıb. Orta təhsilini başa vurduqdan sonra, jurnalistika fakültəsinə daxil olub. Tələbəikən həmin dövrdə çox populyar olan “Molodejğ Azerbaydjana” qəzeti ilə sıx əməkdaşlıq edib. Bu qəzet jurnalistin dünyagörüşündə, tanınmasında, yaradıcılığının püxtələşməsində mühüm rol oynayıb. Qəzetdə 7 il əmək fəaliyyətini davam etdirən O.Mirzəyev gənclərin mətbu orqanında sıravi tərcüməçi kimi də fəaliyyət göstərib. Osman Mirzəyev Azərbaycan Jurnalistlər İttifaqının “Qızıl Qələm” mükafatı ilə təltif edilib, 1988-ci ildə isə mətbuat sahəsində göstərdiyi xidmətlərə görə, “Azərbaycan SSR-in Əməkdar jurnalisti” fəxri adına layiq görülüb. Şəhid jurnalistimizin “Adlarımız”, “Bir dəfə yaşayırıq”, “Damla və göl”, “Qartal uçuşda” kitabları işıq üzü görüb. O, Azərbaycanın televiziya məkanında ilk bədii-publisistik, ictimai-siyasi “Dalğa” verilişinin yaradıcılarından idi. Osman Mirzəyev 1991-ci il 20 noyabr tarixdə Xocavənd rayonu yaxınlığında “Mi-8” vertolyotunun ermənilər tərəfindən vurulması nəticəsində şəhid olub.

Bakıda Şəhidlər xiyabanında torpağa tapşırılıb.

**Fəxrəddin İbrahim oğlu Şahbazov (1950-1991).** 22 yanvar 1950-ci ildə Bakı şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra, Bakı Neft Texnikumuna daxil olub. F.Şahbazov 1969-cu ildə həqiqi hərbi xidmətə çağırılıb, 1971-ci ildə ordudan tərxis olunub, texnikumda təhsilini davam etdirib. 1972-ci ildən Azərbaycan Teleradio Şirkətində operator vəzifəsində çalışıb.

1988-ci ildə ermənilərin Qarabağda açıq silahlı basqınlara başladığı vaxtda, cəbhə bölgələrinə çəkilişlərə gedən Fəxrəddin Şahbazov hər an ölüm təhlükəsi ilə üz-üzə dayanırdı. O, 1991-ci ilin noyabr ayında Azərbaycan Teleradio Şirkətinin bir qrup əməkdaşı ilə eyni tərkibdə cəbhə bölgəsinə ezam olundu. Bu ərəfədə ermənilər Xocavənddə yeni təxribatlar törətdilər, ölən və yaralananlar var idi. Qərara alındı ki, rəhbər işçilər hadisə yerinə getsinlər və məsələni yerindəcə aydınlaşdırsınlar. Ölüm gətirən “Mİ-8” vertolyotu 20 noyabr 1991-ci ildə Fəxrəddinin də son istehkamı oldu. Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında iriçaplı pulemyotlardan atəşə tutulan vertolyot yerə enərkən parçalandı.

Şəhidlik zirvəsinə yüksələn teleoperator Fəxrəddin Şahbazovun iki qız övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 4 dekabr 1992-ci il tarixli 344 saylı Fərmanı ilə Şahbazov Fəxrəddin İbrahim oğluna ölümündən sonra, “Azərbaycanın Milli Qəhrəmanı” adı verildi. Bakıda Şəhidlər xiyabanında dəfn edilib. Paytaxtın Rəsulzadə qəsəbəsində yerləşən küçələrdən biri Fəxrəddin Şahbazovun adını daşıyır.

**Kazımağa Möhsün oğlu Kərimov (1951-1992).** 1951-ci il sentyabrın 1-də Qubadlı rayonunun Sarıyataq kəndində anadan olub. Qubadlı şəhər orta məktəbini bitirdikdən sonra, rayonun “Avanqard” qəzetinin mətbəəsində işləyib. 1970-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub. K. Kərimov təhsil illərində həm respublika, həm də rayon qəzetlərində maraqlı yazılarla çıxış edib. Universiteti bitirdikdən sonra, təyinatla “Azərbaycan məktəbi” jurnalına göndərilib. Həyatında baş verən müəyyən problemlər onu öz sevimli peşəsindən ayrılmağa məcbur edib, Goranboy rayonunun Qızılhacılı kəndini özünə yaşayış yeri seçib. Ömrünün sonunadək həyatını bu torpağa bağlayıb.

1991-ci ildə birinci Goranboy özünümüdafiə batalyonunun yaradılmasında xüsusi fəallıq göstərib, qələmi silahla əvəz edib. Onun döyüş yolu belə başlayıb. Erkəc, Qaraçinar, Meşəli və başqa kəndlərdə keçirilən əməliyyatlarda rəşadətlə vuruşub, şəhid olub. K.Kərimov bir oğul atası idi. Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Kərimov Kazımağa Möhsüm oğluna ölümündən sonra, “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib, Bakıda Şəhidlər Xiyabanında dəfn olunub. Qızılhacılı kənd Mədəniyyət evi onun adını daşıyır. Goranboy şəhərində büstü qoyulub.

**Çingiz Fuad oğlu Mustafayev (1960-1992).** 29 avqust 1960-cı ildə Həştərxan vilayəti Vladimir rayonunun Kapustin-Yar qəsəbəsində hərbçi ailəsində doğulub. 1964-cü ildə ailəsi ilə birlikdə Bakıya köçüb. 1977-ci ildə Yasamal rayonundakı 167 saylı orta məktəbi bitirdikdən sonra, Azərbaycan Tibb İnstitutuna daxil olub. 1983-cü ildə ali təhsilini başa vuraraq, təyinatla üç il Dəvəçi rayonunda həkim işləyib. Sonra Bakıya qayıdaraq işini burada davam etdirir. İxtisasca həkim olsa da, jurnalistika sənətinə böyük həvəs göstərirdi. Bu, özünü 1990-cı ilin Yanvar hadisələrində daha aydın büruzə verdi. 1991-ci ildən etibarən, həyatını jurnalistika ilə bağlayan Çingiz Mustafayev Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində işə düzəlir və “215 KL” studiyasının yaradıcılarından biri olur. Az müddətdə döyüş bölgələrindən hazırladığı operativ reportajları ilə geniş tamaşaçı auditoriyası toplayır. Xocalı faciəsində ermənilərin törətdikləri vəhşiliklərin dünyaya çatdırılmasında böyük rolu olan telerepartyorlardan biri də məhz Cingiz Mustafayevdir. 1992-ci il iyunun 15-də Naxçıvanik kəndində gedən ağır döyüşləri lentə alarkən, Çingiz qəhrəmanlıqla həlak olur. Həkim-jurnalistin bir oğlu qalıb. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı Fərmanı ilə Mustafayev Çingiz Fuad oğluna ölümündən sonra, “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib. Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib. DİN-in Şüvəlan qəsəbəsindəki istirahət guşəsi, Bakı şəhərində küçələrdən biri mərhum jurnalistin adını daşıyır, yaşadığı binanın önündə barelyefi vurulub, C.Naxçıvanski adına Hərbi Liseydə yaradılan xatirə-kompleksində büstü qoyulub.

Havasını udduğumuz, çörəyini yediyimiz, suyunu içdiyimiz Vətəni gözbəbəyimiz kimi qorumalıyıq. Vətəni dərin məhəbbətlə sevmək, onun mənafeyini qorumaq, bir sözlə, vətənpərvərlik tərbiyəsinə sahib olmaq bir vətəndaş kimi hər birimizin borcudur.

**Aişə Baxşiyeva,**
*Tədris şöbəsinin mütəxəssisi*

# Milli Mətbuat Günü münasibətilə media nümayəndələri mükafatlandırılıb



***Azərbaycan İlahiyyat İnstitutu 22 iyul - Milli Mətbuat Günü münasibətilə iyulun 17-də Beynəlxalq Mətbuat Mərkəzində tədbir təşkil edib. Tədbirdə Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, kütləvi informasiya vasitələrinin rəhbərləri və jurnalistlər iştirak ediblər.***



Rektor Ceyhun Məmmədov iştirakçıları salamlayaraq bildirib ki, əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində, mətbuatımız özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Rektor qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə və 1993-cü ildən sonrakı dövrdə də yazarlara, mətbuat işçilərinə, qələm əhlinə xüsusi diqqət və qayğı göstərib. Ölkəmiz müstəqillik əl-



də etdikdən sonra, hər il iyulun 22-si Milli Mətbuat Günü kimi qeyd olunur.

Rektor bildirib ki, Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzetinin nəşri bütün Qafqazda əks-səda doğuraraq, xalqımızın milli oyanışında, birliyinin möhkəmləndirilməsində böyük rol oynayıb. C.Məmmədov mətbuatın dövlət-din münasibətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmasını yüksək qiymətləndirib, media nümayəndələrini bu sahədə həyata keçirilən islahatları ictimaiyyətə çatdırmaqda daha da fəal olmağa çağırıb. Dünyada, xüsusilə din sahəsində baş verən dəyişikliklərin ictimaiyyətə çatdırılmasında fəal



jurnalist mövqeyi ilə seçilən mətbuat nümayəndələrini 22 İyul - Milli Mətbuat Günü münasibətilə təbrik edib.

Media nümayəndələrini təbrik edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş Milli Mətbuatımızın xalqımızın maariflənməsində, milli dəyərlərin təbliğində mühüm vasitə olduğunu bildirib, Azərbaycanda medianın inkişafı istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini nəzərə çatdırıb.



Ə.Amaşov bildirib ki, Həsən bəy Zərdabinin redaktoru olduğu "Əkinçi" qəzeti Azərbaycan xalqının milli şüurunu oyadıb. Həmçinin 144 il öncə Azərbaycan mətbuatının əsasını qoyan "Əkinçi" qəzetinin şanlı ənənəsinin bugünkü mətbuatımız tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Ə.Amaşov daha sonra bildirib ki, Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan bu mühitin təbliğində medianın rolu böyükdür. O qeyd edib ki, xarici qüvvələrin dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında media nümayəndələrinin fəaliyyəti önəmlidir. O, milli-mənəvi və dini dəyərlərimizin təbliğ və təşviq edilməsində, dinin gözəl və düzgün formada ictimaiyyətə çatdırılmasında media nümayəndələrinin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

Beynəlxalq Mətbuat Mərkəzində təşkil olunan tədbirdə AİI-nin fəaliyyətini obyektiv işıqlandıran, fəallığı ilə seçilən media nümayəndələri təltif olunublar.

## AİI rektoru "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilib



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov Azərbaycan Prezidenti cənab İlham Əliyevin 27 may 2019-cu il tarixli 1205 nömrəli Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilib.

Yubiley medalı bu gün - 10 iyul 2019-cu il tarixdə - Təhsil Nazirliyində bir qrup təhsil işçisinə, o cümlədən, i.f.d. Ceyhun Məmmədova təqdim edilib. AİI-nin rektoru medalın ona təqdim olunmasını rəhbərlik etdiyi İnstitutun kollektivinə verilən qiymət, göstərilən böyük etimad kimi dəyərləndirib: "Azərbaycan Xalq Cümhuriyyətinin adını daşıyan medala layiq görülməyim təkcə mənə yox, eyni zamanda, Azərbaycan İlahiyyat İnstitutunun kollektivinə göstərilən yüksək dəyər və qiymətin bariz nümunəsidir. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalına layiq görülmək böyük şərəfdir. Buna görə cənab Prezident İlham Əliyevə öz adımdan və İnstitutun kollektivi adından səmimi minnətdarlığımı bildirir, təşəkkür edirik. Bu yüksək təltifə layiq görülən bütün həmkarlarımı təbrik edirəm".

Məlumat üçün bildiririk ki, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalının təsis edilməsi ilə bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Bu medalla AXC liderlərinin varisləri və Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

## İş həyatında sosial məsuliyyət və etik-davranış qaydaları



22 iyul 2019-cu il tarixdə Azərbaycan Dövlət İqtisad Universiteti Türk Dünyası İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri dosent Oqtay Quliyevin təqdimatında İnstitutunun əməkdaşları üçün "İş həyatında sosial məsuliyyət və etik-davranış qaydaları" mövzusunda təlim təşkil olunub.

AİI rektoru Ceyhun Məmmədov təlim iştirakçılarını salamlayaraq bildirib ki, İnstitut tədrisin yüksək səviyyədə təşkili ilə yanaşı, müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsi məqsədi ilə davamlı tədbirlər və görüşlər təşkil edir.

C.Məmmədov rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti, elmi və mədəni inkişafı istiqamətində təşkil olunan konfrans, seminar, layihə və proqramlar barədə məlumat verib. O, gənc kadrların intellektual səviyyəsinin yüksəldilməsində və daha böyük nəticələrin əldə olunmasında bu cür təlimlərin xüsusi rol oynadığını vurğulayıb.

Azərbaycan Dövlət İqtisad Universiteti Türk Dünyası İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri dosent Oqtay Quliyev "İş həyatında sosial məsuliyyət və etik-davranış qaydaları" mövzusunda məruzə ilə çıxış edib. Sosial məsuliyyət haqqında ətraflı məlumat verən O.Quliyev etik-davranış qaydalarını dəqiqləşdirən normaların, həmçinin təminatların dövlət orqanlarının normativ hüquqi aktları ilə müəyyənləşdirildiyini qeyd edib. Bildirib ki, yüksək nəticə əldə etmək üçün kollektivin böyük bir hissəsi məsuliyyətli, mehriban, yüksək iş bacarığına malik ixtisaslaşdırılmış peşəkar işçilərdən təşkil olunmalıdır.

Təlimdə işçinin şəxsiyyətinə hörmətlə yanaşmaq; bütün problemləri açıq müzakirə edərək, vahid fikrə gəlmək; şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə öz vəzifə borcunu səmərəli yerinə yetirmək; rəhbərlə, yaxud tabeliyində olanlarla nəzakətlə, diqqətlə və səbirlə davranmaq haqqında geniş məlumat verilib.

Təlim tələbələrin və qonaqların maraqlı müzakirələri ilə davam edib.

Sonda təlim iştirakçıları sertifikatlarla təltif olunublar.

# Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50-ci ildönümü



**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 10 iyul 2019-cu il tarixdə ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə tədbir keçirilib.**

Millət vəkili, siyasi elmlər doktoru Elman Nəsirov, İnstitutun müəllim-tələbə heyəti və digər qonaqlar tədbirdə iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan rektor Ceyhun Məmmədov ölkəmizdə tarixən mövcud olan multikultural və tolerant mühit, o cümlədən, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məruzə ilə çıxış edib. Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin bu sahədə müstəsna xidmətlərinə bariz nümunə kimi, Azərbaycan Respublikasının Konstitusiyasında müvafiq müddəaları, "Dini etiqad azadlığı haqqında" qanunu və digər qanunvericilik aktlarını göstərmək mümkündür.

Dövlət-din münasibətlərinin düzgün qurulmasında, respublikada dini əmin-amanlığın və sabitliyin yaranmasında Ulu Öndərin mühüm rol oynadığını vurğulayan rektor Azərbaycanda dövlətin din siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin iyununda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradıldığını nəzərə çatdırıb.

C.Məmmədov bildirib ki, Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə seçilməsi tariximizin dönüş nöqtəsi kimi yaddaşlara həkk olunub. Qeyd edib ki, Azərbaycanda hər bir sahədə müşahidə olunan inkişaf tendensiyası təhsil sektorunda da nəzərə çarpmaqdadır. Bu inkişafın əsasında isə ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən siyasi-strateji kurs dayanır. Bu gün məhz ulu öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər sistemini ehtiva edən ənənələr Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının yüksək diqqəti və qayğısı ilə atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində yeni uğurların əldə olunmasına gətirib çıxarır. C.Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində dövlət siyasəti böyük uzaqgörənliklə həyata keçirilir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun, eyni zamanda, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu siyasətin parlaq nümunəsidir.

Millət vəkili, siyasi elmlər doktoru Elman Nəsirov Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan dövlətçiliyinin bərpasında, qorunub saxlanılmasında misilsiz xidmətlərindən bəhs edərək, Ümummilli Liderin xalqımızın rifahı naminə həyata keçirdiyi siyasi-iqtisadi islahatlardan söhbət açıb.

Azərbaycan Dövlətinin Ulu Öndərdən xalqımıza əmanət olduğunu qeyd edən E.Nəsirov "Bu əmanəti göz bəbəyi kimi qorumaq və Heydər Əliyev ideyaları ətrafında sıx birləşib, bu ənənələri qorumaq hər birimizin müqəddəs borcudur. Ulu Öndər həm 1969-1982-ci, həm də 1993-2003-cü illərdə Azərbaycana rəhbərlik etdiyi dönəmdə hər iki dövr bir-birindən zaman baxımından, həmçinin ictimai-siyasi formasiya baxımından fərqlənsə də, Azərbaycan dövlətçiliyinə xidmət hər iki mərhələdə birbirinə oxşardır, eyniyyət təşkil edir. Heydər Əliyev Azərbaycanı Sovet İttifaqının inkişaf etmiş respublikalarından birinə çevirdi. Ulu Öndərin ən böyük xidmətlərindən biri də bu idi ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsdiq edilməsinə nail oldu".

Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı ilk illərdə ölkəmizdə bütün sahələrdə yaşanan tənəzzüldən bəhs edən E.Nəsirov ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, respublikamızın dinamik inkişaf yoluna qədəm qoyduğunu, beynəlxalq ictimaiyyət arasında dərin hörmət və nüfuz qazandığını vurğulayıb.

## Azərbaycan İlahiyyat İnstitutu Elmi Şurasının qərarı ilə "Heydər Əliyevin kəlamları" adlı kitab nəşr olunub




Azərbaycan İlahiyyat İnstitutu (AİI) Elmi Şurasının qərarı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə "Heydər Əliyevin kəlamları" adlı kitab 21 dildə çapdan çıxıb.

Kitabda Ulu Öndərin xidmətlərini, onun Azərbaycanda elm və təhsilin, maarifçiliyin inkişafında, milli ideologiyanın formalaşmasında, dini-mənəvi dəyərlərin və multikultural mühitin qorunmasında misilsiz fəaliyyətini əks etdirən kəlamları Ana dilimizdə və 20 xarici - rus, türk, ingilis, ərəb, fars, alman, fransız, ispan, italyan, ibri, Çex, polyak, serb, hind, macar, rumın, yunan, İndoneziya, Koreya və portuqal dillərində təqdim olunur.

Qeyd edək ki, dünyaşöhrətli siyasətçi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında saysız-hesabsız əsərlər yazılıb, cild-cild kitablar nəşr olunub. Heydər Əliyev irsi elə bir xəzinədir ki, onu öyrənmək, tədqiq edib başa çatdırmaq mümkün deyil. Bu irs hələ bundan sonra da yeni-yeni nəsillərin tədqiqat obyekti olacaq.

Məlumat üçün bildirək ki, İnstitut müəllimlərinin iştirakı ilə 21 dilə tərcümə olunan "Heydər Əliyevin kəlamları" adlı kitab "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçılarına təqdim olunub.

# AİI-də YAP-ın ərazi ilk partiya təşkilatının növbəti iclası



Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 3 iyul 2019-cu il tarixdə Yeni Azərbaycan Partiyasının (YAP) ərazi ilk partiya təşkilatının növbəti iclası keçirilib.

Tədbirdə YAP-ın Yasamal Rayon Təşkilatının sədri Tağı Əhmədov, YAP-ın Yasamal Rayon Təşkilatı sədrinin müavini Bəxtiyar Nəbiyev, AİI-nin rektoru Ceyhun Məmmədov, İnstitutun müəllim, tələbə və işçi heyəti iştirak edib.

AİI rektoru C.Məmmədov ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynadığını bildirib. Rektor qeyd edib ki, müasir Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyaları ilə uğurlu inkişaf yolundadır. Bu gün Azərbaycanın müsəlman ölkələri arasında əmin-amanlığı ilə seçildiyi qeyd olunub. C.Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət sayəsində ölkəmizin etibarlı gələcəyinin möhkəm, sarsılmaz əsasları yaradılır.

Ölkə Prezidentinin Sərəncamı ilə AİI-nin yaradılması bu istiqamətdə atılmış vacib addımlardan biri olduğunu nəzərə çatdıran İnstitut rəhbəri ali təhsil müəssisəsinin dövlətin xüsusi diqqət və qayğısı ilə tam əhatə olunduğunu nəzərə çatdırıb. C.Məmmədov daha sonra vurğulayıb ki, hər birimiz özümüzü dövlətin əsgəri hesab edirik və göstərilmiş etimadı doğrultmaq üçün AİI heyəti olaraq var gücümüzlə çalışırıq.

İclasda çıxış edən YAP Yasamal Rayon Təşkilatının sədri Tağı Əhmədov partiyanın yaranma tarixindən bəhs edib. 14 iyul 2019-cu il tarixdə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən 50 il ötdüyünü vurğulayan Tağı Əhmədov Ulu Öndərin Azərbaycan tarixindəki misilsiz xidmətlərindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyanın bu gün gördüyü işlərdən, YAP-ın Azərbaycan dövlətçiliyinin inkişafına verdiyi töhfələrdən danışıb. T. Əhmədov vurğulayıb ki, YAP-ın öz sıralarını daim genişləndirməsi partiyaya cəmiyyətdə olan yüksək inam və etibarın göstəricisidir. Bunun əsasında partiyanın keçdiyi şərəfli yol, Azərbaycançılıq əqidəsinə söykənərək, daim ölkəmizin hərtərəfli tərəqqisi və firavan gələcəyi üçün göstərdiyi xidmətlər dayanır.

İclasda üzvlük üçün müraciət edən əməkdaşların ərizələri qəbul olunub.

Sonda YAP-ın təşkilatçılığı ilə keçirilən şahmat yarışmasında üçüncü yerin qalibi olan əməkdaşlarımız medal və mükafatlarla təltif olunublar.

## "Din araşdırmaları" jurnalının iyun sayı nəşr olunub




Azərbaycan İlahiyyat İnstitutunun (AİI) elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının iyun sayı dərc edilib. Baş redaktoru İnstitutun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov olan jurnalın məqsədi ölkəmizdə və dünyada din araşdırmaları sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. İldə iki dəfə dərc olunması nəzərdə tutulmuş jurnalın növbəti sayında 30 məqalə yer alıb. Din sosiologiyası, Din psixologiyası, İslam məzhəbləri tarixi, Hədis, Təfsir, Kəlam, Tarix, Fəlsəfə, Din təhsili, Dilşünaslığa dair qələmə alınmış elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilmişdir. Jurnalın redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, İran və İsveçrənin təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış təhsil müəssisəsidir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə xüsusi əhəmiyyət verir. Qeyd edək ki, akademik nəşrlər hər bir ali təhsil müəssisəsinin elmi fəaliyyətinin əsas göstəricilərindəndir. Gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb.

# Din duyğusu fərdə və cəmiyyətə nə verir?

İnsan təbiəti etibarilə inanclı bir varlıqdır. Onu digər canlılardan fərqləndirən ən mühüm xüsusiyyətlərindən biri inancıdır. İnsan öz həyatına məna qatmaq üçün hər hansı bir inancı mənimsəmək məcburiyyətindədir. İnsanın bütün davranışlarının çıxış nöqtəsi inandığı dəyərlərin ona təlqin etdiyi hədəflərə çatmaq arzusudur. Bir çox sosio-psixoloji araşdırmalar onu göstərir ki, cəmiyyət arasında dinsiz insanların olması mümkündür, ancaq bəşəriyyət tarixinin heç bir mərhələsində inancsız cəmiyyət mövcud olmamışdır. Günümüzdə də ən ibtidaisindən ən müasirinədək bütün cəmiyyətlərin inanc sistemlərinin olduğu müşahidə olunur.

Din mədəniyyətin bir parçasıdır. Başqa bir ifadə ilə, din mədəniyyəti formalaşdıran ən mühüm ünsürlərdən biridir. Bu baxımdan, dünyanın bütün çağdaş mədəniyyətləri dinə xüsusi əhəmiyyət vermiş, din təhsilini və din sahəsindəki tədqiqatları dəstəkləmişdir. Bu təşəbbüslərin bir çoxu cəmiyyəti daha çox dindarlaşdırmaq məqsədi ilə deyil, dinin fərdi və ictimai həyata verdiyi töhfələrin təsirinin və effektivliyinin faydalı səviyyəyə çatdırılması məqsədilə həyata keçirilmişdir. Xüsusilə radikalizm təmayüllərinin baş verdiyi, dini maarifləndirmənin xaotik bir görüntüsü müxtəlif dövrlərdə və cəmiyyətlərdə din təhsilinə duyulan ehtiyacı bariz şəkildə hiss etdirir.

Sosial və psixoloji tədqiqatlar din təhsilinin fərd və cəmiyyət baxımından bir çox faydalarının olduğunu göstərir. Düzgün plan, proqram və yanaşma üzərində qurulan din təhsili sağlamtəfəkkürlü, mənəvi dəyərlərə bağlı, fərdə və cəmiyyətə yararlı, sosial məsuliyyət şüuruna sahib insanların yetişməsi baxımından olduqca əhəmiyyətlidir.



**f.f.d KÖVSƏR TAĞIYEV,**
*Aİİ İlahiyyat fakültəsinin dekan müavini*

Düzgün din təhsili fərdin dini inanclar haqqında doğru məlumatlar əldə olunmasını təmin edir, ona dinə dair fərqli dünyagörüşləri arasından dinin əsl ruhuna uyğun olanı seçə bilmək və onları bir-birindən fərqləndirmək kimi mühüm bir qabiliyyət qazandırır. Həmçinin düzgün bir şəkildə həyata keçirilən din təhsili fərdin dünyagörüşünü formalaşdırır, onun həyatına və davranışlarına məna qatır.

Dinə dair bilikləri düzgün mənbələrdən və mütəxəssislərdən almayanların qarşılaşdığı ən ciddi problemlərdən biri ifrat və təfritə yönəlməkdir. İfrat dində həddi aşmağı, təfrit isə dinin təqdim etdiyi dəyərlərə və ayinlərə qeyri-ciddi yanaşmağı, onlardan bir çoxunu lazımsız görməyi ifadə edir. İslam dini bu ikisi arasında orta yolu - mötədillik yolunu tutmağı öz ardıcıllarına tövsiyə edir. Düzgün din təhsili insanları ifrata və təfritə düşməkdən ciddi ölçüdə qoruyur ki, bu da dövrümüzün dinlə bağlı ən aktual problemlərindən biridir.

Hər insanda anadangəlmə və sonradan qazanılan arzu, istək və təmayüllər var. İnsanın bütün davranışlarının mərkəzində bu dayanır. Bu arzu və təmayüllər doğru istiqamətləndirilmədiyi təqdirdə, insanı zərərli vərdişlərə və zərərli davranışlara yönəldir; misal üçün: gəlir və ya mənsəb əldə etmək insanlar üçün təbii bir arzudur. Bu istək düzgün istiqamətləndirilmədikdə, sahibini yüksək ehtimalla, hərisliyə və ehtirasa aparar. Fərdi zərərli davranışlara yönəldə biləcək bu kimi arzuların düzgün istiqamətə yönləndirilməsində, şübhəsiz ki, mənəvi tərbiyənin rolu danılmazdır.

Din duyğusu ilə ruhi sağlamlıq arasında da yaxın bir əlaqə var. Ruhi pozğunluqlar dövrün gətirdiyi ən yaygın xəstəliklərdəndir. Şiddət, əsəb, yalnızlıq kimi problemlər insanları çox zaman intihara qədər aparır. Hər şeyi yaradan, görən və idarə edən bir Yaradıcının varlığına inanan bir kəs bugünə və gələcəyə ümidlə baxar. Xeyrin və yaxşılığın mükafatlandırılacağına, üzləşdiyi müsibətlərə səbir etdiyi təqdirdə, xeyirlə nəticələnəcəyinə ümid bəsləyər, həyata nikbin baxar.

Din duyğusuna sahib olmağın fərdlər üçün bir çox faydasından söz açmaq mümkündür. Yüksək mənəvi dəyərlərə sahib fərdlərin varlığı isə öz növbəsində, müsbət dəyərlərə sahib cəmiyyətin formalaşmasının birinci şərtidir. Bu cür dəyərlərə sahib fərdlərin çoxluq təşkil etdiyi cəmiyyətdə insanlar arasındakı sevgi və hörmət bağları güclənər, yaxşılıq və xeyirxahlıq cəmiyyətin bütün təbəqələrinə yayılar, birlik və bərabərlik şüuru formalaşar.

# "Müasir alman cəmiyyətində İslama münasibət"

5 iyul 2019-cu il tarixdə Azad Berlin Universitetinin məzunu, Avropa İxtisasartırma Mərkəzinin baş müəllimi Rüfət Səttarovun təqdimatında "Müasir alman cəmiyyətində İslama münasibət" mövzusunda seminar təşkil olunub.

Aİİ-nin Tədris şöbəsinin müdiri Zərifə Əliyeva seminar iştirakçılarını salamlayaraq, İnstitutun fəaliyyətə başladığı gündən təlim, tərbiyə, tədris işinin təşkili, həyata keçirilməsi ilə yanaşı, maarifləndirmə və təbliğat xarakterli tədbirlərə, görüşlərə də xüsusi önəm verildiyini qeyd edib. O, mövzunun əhəmiyyətinə toxunaraq, Aİİ-də təhsilin keyfiyyətinə xüsusi önəm verilməklə yanaşı, tələbələrin ictimai-mədəni fəaliyyətinin təşkili üçün də səy göstərildiyini bildirib.



"Azad Berlin" Universitetinin məzunu, Avropa İxtisasartırma Mərkəzinin baş müəllimi Rüfət Səttarov "Müasir alman cəmiyyətində İslama münasibət" mövzusunda məruzə ilə çıxış edib. R.Səttarov müxtəlif mədəniyyətlərə malik alman cəmiyyətində mövcud problemlər və dinlərin bir-birlərinə qarşılıqlı ehtiram göstərmələri barədə məlumat verib. Qeyd edib ki, İslam Almaniyanın modern və dəyişməkdə olan cəmiyyətinin bir parçasıdır.

R.Səttarov bir dövlətin sərhədləri daxilində müxtəlif etnomədəni tərəflərin dinc yanaşı yaşamaq, öz mədəni xüsusiyyətlərini, həyat tərzini rəsmən ifadə etmək hüququna malik olduğunu vurğulayıb. Həmçinin Almaniyada yaşayan müsəlmanların cəmiyyətə inteqrasiyasından, dünyada ekstremizm və dini-ideoloji münaqişələrlə mübarizənin aparılması üçün tolerantlıq və multikultural mühitin hökm sürdüyü ölkələrin təcrübəsindən yararlanmağın əhəmiyyətindən bəhs edib.

Sonda R.Səttarov tələbələrin çoxsaylı suallarını cavablandırıb, seminar iştirakçıları ilə fikir mübadiləsi aparıb.

# Aİİ rektoru "Tələbələrin dostu" sosial mükafatına layiq görülüb



**Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov ali təhsil müəssisəsində şəffaflığın və obyektivliyin təmin edilməsi məqsədilə həyata keçirdiyi tədbirlərlə tələbələrin rəğbətini qazanaraq, ölkənin ən böyük təhsil səhifəsi olan və ölkə ali məktəblərini özündə birləşdirən "Azərbaycan universitetləri" "Facebook" səhifəsinin təsis etdiyi "Tələbələrin dostu" sosial mükafatına layiq görülüb.**

18 iyul 2019-cu il tarixdə Aİİ-də mükafatın təqdimolunma mərasimi keçirilib. "Azərbaycan universitetləri" "Facebook" səhifəsinin rəhbəri Zöhrab Süleyman "Tələbələrin dostu" sosial mükafatını rektor Ceyhun Məmmədova təqdim edib.

Rektor mükafat üçün Zöhrab Süleymana təşəkkür edib. O, İnstitutda təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmənin daha çevik və səmərəli qurulması, beynəlxalq əlaqələrin genişləndirilməsi üçün həyata keçirilən böyük islahatlar, çoxsaylı layihələr haqqında məlumat verib, qarşıya qoyulan hədəf və məqsədlərlə bağlı fikirlərini söyləyib..

Aİİ rəhbəri vurğulayıb ki, güclü şəxsiyyət yetişdirmək üçün tələbələrə dərin bilik, zəngin dünyagörüş, yüksək mədəniyyət aşılamaq İnstitutun əsas məqsədlərindəndir. Vətənpərvər mütəxəssislərin hazırlanması yönündə dərin dini və dünyəvi biliklərə, yüksək intellektə malik kadrların yetişdirilməsi İnstitutun qarşıya qoyduğu vəzifələrdəndir. C.Məmmədov qeyd edib ki, bu məqsədlərə nail olmaq üçün Aİİ bütün gücünü və potensialını səfərbər edib, göstərilən yüksək inam və etimadı doğrultmağa çalışır.

Rektor Aİİ-də dövlətin qayğı və təminatı ilə hər cür şəraitin yaradıldığını, təhsilin ödənişsiz əsaslarla həyata keçirildiyini, ayrıca xarici dil kurslarının təşkil edildiyini, İnstitutda tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi istiqamətində müxtəlif mövzularda seminar və görüşlərin təşkil olunduğunu vurğulayıb.

Ali təhsil müəssisəsində qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətlərinin hökm sürməsi üçün tələb olunan bütün zəruri addımların atıldığını və bundan sonra da atılacağını bildirən rektor tələbələrə valideyn qayğısı ilə yanaşıldığını nəzərə çatdırıb.

Zöhrab Süleyman İnstitut yarandığı gündən etibarən, öz fəaliyyətində milli-mənəvi dəyərlərimizin təbliğinə, tələbələrdə vətənpərvərlik ruhunun, Vətənə sevginin və ona bağlılığın gücləndirilməsinə xüsusi önəm verildiyini qeyd edib. Həmçinin Aİİ-nin mütərəqqi yeniliklərlə cəmiyyətdə nüfuzunun xeyli yüksəldiyini və müsbət imicinin formalaşdığını vurğulayıb.

Z.Süleyman Azərbaycan İlahiyyat İnstitutuna gələcək fəaliyyətində müvəffəqiyyətlər arzulayıb.

# İslam dinində dözümlülük ənənəsi: *tarixi aspektlər*

1991-cı ildə Sovet İttifaqının süqutundan və "soyuq müharibə" dövrü bitdikdən sonra, dünyada mübarizə aparan qüvvələrin siyasi və ya iqtisadi ideologiyalar deyil, mədəniyyətlər olacağını, tarixin gedişində mədəniyyətlərarası toqquşma amilinin mühüm rol oynayacağını iddia edən nəzəriyyələr irəli sürülüb. Bu nəzəriyyənin mahiyyəti qismən də ondan ibarət idi ki, tarixin sonu adlandırılan bu dövrdən sonra Qərb mədəniyyətinin qarşısında duran yeganə qüvvənin İslam mədəniyyəti olması düşüncəsidir. Beləliklə, bəzi müsəlman ölkələrində konfessiyalararası zorakılığın artması prosesi beynəlxalq münasibətlərdə, sanki "mədəniyyətlərin toqquşması" konsepsiyasının reallaşması kimi təqdim edilir. İslam dininin lideral demokratiya əleyhinə olan bir mədəni sistem kimi təqdimi, təbii ki, birmənalı qəbul edilə bilməz; bu, ilk növbədə, İslam dininin prinsiplərinə və tarixi faktlara uyğun gəlmir.

İslam mədəniyyətində dözümlülük ənənəsi, birinci növbədə, əsasını müsəlmanların Müqəddəs Kitabı olan Qurandan götürülüb. "Qurani-Kərim" "Dində heç bir məcburiyyət (zorakılıq) yoxdur"1 qaydasını qoyub. Buna görə də İslama qorxu altında, zorakı yollarla qəbul etdirilən etiqad və mərasimlər doğru hesab olunmur. Bir başqa Quran ayəsində "Sizin öz dininiz var, mənim də öz dinim!" - deyə dini müxtəliflik aydın ifadə olunur. Bunlar kimi, dini dözümlülüyə misal göstərilən Quran ayələrinin sayını daha da artırmaq mümkündür. Quranda müharibə aparmaqla əlaqədar məqamlara gəlincə, bunlar dövrün xüsusi şərtləri və ya özünümüdafiə strategiyası kimi anlaşılmalıdır. Belə ki, müharibə ilə bağlı ehkamları dövrün tarixi kontekstindən ayıraraq, günümüzdəki zorakılıq halları ilə əlaqələndirmək obyektiv yanaşma deyildir. İslamda müharibə, yaxud cihad, ilk növbədə, insanın özünü kamilləşdirməsi kimi izah edilir. Bununla yanaşı, cihad insanın öz Vətənini, millətini, həmçinin özünü düşmən təhlükəsindən qorumaq kimi başa düşülməlidir.

İslam dinində fərqli din, məzhəbə münasibətlər, beynəlxalq əlaqələr və digər prinsiplər, məlum olduğu kimi, müxtəlif şəkildə interpretasiya edilə bilər. İslam tarixində fərqli din və mədəniyyətlərin özünəməxsus siyasi sistemdə ehtiva edildiyi, beləliklə, fərqli din, mədəniyyət və millətlərin birgəyaşayışının təmin edildiyini göstərən presedentlər mövcuddur.



**s.f.d. ASƏF QƏNBƏROV,**
***AİI Dinşünaslıq kafedrasının müəllimi***

Hər şeydən əvvəl, Məhəmməd Peyğəmbərin həyatı, sözləri və fəaliyyəti dözümlülük ənənəsinin nümunəsi kimi təqdim edilə bilər. İslam tarixində verilən məlumatlara görə, erkən dövrlərdə müsəlmanlar Məkkədə uzun müddət zülm və işgəncələrə məruz qalıb, sonunda evini-yurdunu tərk edərək, 622-ci ildə Yəsribə (Mədinə) köçmək məcburiyyətində qalıblar. Məkkə şəhəri on ildən sonra fəth edildəndə isə müsəlmanlar, cinayət işlətmiş bir neçə şəxs müstəsna olmaqla, heç kimi cəzalandırmayıb, köhnə ədavətlər unudulub. İslam dinini qəbul etməyənlər də əqidələrində sərbəst buraxılıblar. Həmin dövrdə müsəlmanlar Mədinə şəhərinə köçdükləri üçün orada müsəlmanlardan başqa iki icma mövcud idi: bunlar yəhudilər və bütpərəstlərdən ibarət idi. Məhəmməd Peyğəmbərin Mədinəyə yerləşməsindən dərhal sonra, orada yaşayan üç fərqli icma arasında "Mədinə müqaviləsi" adlandırılan anlaşma imzalandı. Bu müqaviləyə əsasən, Mədinə şəhərdövləti yaradılıb və burada yaşayan hər kəs bərabərhüquqlu üzv hesab edilib. Hər bir dini icma xarici təhdidlərə qarşı bir yerdə dövləti müdafiə vəzifəsi daşıyır, eyni zamanda, öz daxili işlərində, əqidəsində və qanunqaydalarında müstəqil hüquqlara malik idilər.

İslam tarixində dinlərarası dözümlülük və fərqli dinlərə tolerant yanaşmaya verilə biləcək digər bir nümunə, Məhəmməd Peyğəmbərin Nəcran xristianları ilə görüşməsi hadisəsidir. Məhəmməd Peyğəmbər xristianlardan ibarət heyət ilə görüşüb, onları İslama dəvət edib. Bu dəvət qəbul edilmədikdə sərbəst buraxılaraq, heç bir təzyiqə məruz qalmayıb, təqib edilməyiblər.

Tarixi mənbələrdə göstərilir ki, müsəlmanlarla-nəcranlılar arasında müqavilə bağlanılıb. Müqaviləyə əsasən, Nəcran xristianlarının bütün təhlükəsizlik, mülkiyyət və dini ayinlərini yerinə yetirmə hüquqlarının qorunmasına zəmanət verilib. Onların adət-ənənələrinə hörmətlə yanaşılacağı, dini işlərinə müdaxilə edilməyəcəyi də bu müqavilənin maddələri arasında yer alıb.

İslam tarixinin xilafət dövründə də eyni siyasət davam etdirilib. Xristian və yəhudi icmalara tanınan hüquqlar, eyni zamanda, zərdüştilik, hinduizm və buddizmə etiqad edənlər üçün də tətbiq edilib. Onlar İslam dinini qəbul etməyə məcbur olunmayıblar, əksinə, İslamı seçmək, yaxud öz dinlərində qalma baxımından tam sərbəstlik hüququna malik idilər. Bu, onu göstərir ki, dini etiqad azadlığı müsəlman cəmiyyətlərində xüsusi statusa malik "kitab əhli", yəni xristian və yəhudilərdən başqa dinlərə də şamil edilib. Hakim dindən fərqli olan icmaların öz daxili işlərində, yəni evlənmə, boşanma, miras, habelə din işlərinin idarə edilməsi və din təhsili hüquqları tam təmin edilib. Osmanlı İmperiyasında isə fərqli dini və etnik qruplar "millət sistemi"ndə, başqa sözlə, özünüidarəedən icmalar olaraq, plüralist hüquqi sistemdə yer tuturdular.

Ümumilikdə, İslam tarixinə nəzər saldıqda, müsəlman cəmiyyətlərində yaşayan qeyri-İslam dini icmalar və etnik qruplara verilən hüquqlar aşağıdakı kimi xülasə edilə bilər:

*- qeyri-müsəlmanların dini əqidələrinə, ibadət yerlərinə, dini həyatlarına müdaxilə edilməyib;*

*- onlara yaşamaq və mülkiyyət hüquqları, istədikləri yerdə məskən tutma sərbəstliyi verilib;*

*- qeyri-müsəlmanların din xadimlərini yetişdirə bilmələri üçün din təhsili hüquqları təmin edilib;*

*- müsəlman cəmiyyətində başqa dinlərin bayramlarına və ənənələrinə hörmətlə yanaşılıb;*

*- müsəlman cəmiyyətlərində "plüralist hüquq sistemi" (millət sistemi) tətbiq edilib: qeyri-müsəlmanlara İslamın qanun-qaydaları deyil, özlərinin hüquqi qanunqaydalarına görə, ictimai-siyasi həyatlarını tənzimləmə imkanı verilib.*

Bu mənada, İslam dininin Azərbaycanda yaşayan millətlərin vahid bir xalq kimi formalaşmasında müsbət təsiri olduğu kimi, bu ərazidə dini tolerantlıq ənənəsinin də əsasını qoyub. İslam dininin təsiri altında ölkəmizdə tarixən formalaşan dini tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən bir ənənəyə çevrilib.

## Azərbaycanın tarixi irsi: Qax rayonunda yerləşən Alban məbədləri



**AYTƏN İSMAYILOVA,**
***AİI Dinlər və ictimai fənlər kafedrasının laborantı***

Qax rayonu Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində yerləşir. Rayonun ərazisində 70-ə yaxın tarix və mədəniyyət abidəsi qeydə alınıb. Azərbaycan multikulturalizminin tarixi köklərinə aid olan bu abidələr böyük əhəmiyyət kəsb edir. Qax ərazisində yerləşən Ləkit, Qum, Kürmük məbədləri, Ulu körpü, Ulu məscid, Sumuqqala dünya abidələri siyahısına daxil edilib.

Məbədlər bütün inanc sistemlərində insanların dini sitayişi üçün istifadə edildiyi məkanlardır. Orta əsrlərdən etibarən, qayalar üzərində oyulmuş mağaralardan təbii məbəd kimi istifadə edilib.



Ləkit məbədi Qax rayonu Ləkit kəndindən 1 km uzaqlıqda yerləşən qədim Alban məbədidir. Mütəxəssislər bu məbədi IV-VI əsrlərə aid edirlər. Məbəd, təqribən, IV əsrdə Albaniya hökmdarı III Mömün Vaçaqanın hakimiyyəti dövründə xristianlıq elementləri əlavə olunmaqla kilsəyə çevrilib. Kilsə qədim zərdüştilik məbədi əsasında yaradılıb. Ləkit məbədini kilsəyə çevirərkən onun əsas memarlıq quruluşuna toxunulmayıb. Yalnız xristian dininin ehkamlarına uyğun olaraq, səcdəgahlar əlavə edilib.



Kürmük məbədi Qax rayonu ərazisində vaxtilə mövcud olan (I-III əsrlərdə) Alban məbədinin qalıqları üzərində Rusiya tərəfindən bölgəni xristianlaşdırmaq və dini dayaq yaratmaq məqsədilə tikilib. İlisu sultanlığını işğal edən Çar Rusiyası 1873-cü ildə kilsənin inşasını başa çatdırıb.

Ənənəvi olaraq Qax rayonundakı Kürmük məbədində ildə iki dəfə - may və noyabr aylarında "Kürmük oba bayramı", yaxud gürcülərin təbirincə desək, "Müqəddəs Georgi Günü" qeyd olunur. Həmin gün məbəd öz qapılarını adi günlərdə olduğu kimi hamının, həmçinin ölkədəki azsaylı və qonşu xalqların üzünə açır. Məbədə gələn insanlar burada Allaha sitayiş və dua etməklə bərabər, arzu və istəklərini söyləyərək, məbəd ərazisindəki qədim daşın üzərində şam yandırırlar. Bu, daş üstündə əvvəllər məbəd ucaldılmış qaya parçasıdır. Niyyəti hasil olan insanlar isə müqəddəs sayılan daşın yaxınlığında qurban kəsirlər.



Qum məbədi anlayışına elmi ədəbiyyatda bəzən Qum bazilikası adı ilə də rast gəlmək mümkündür. Bazilika "hökmdar evi" mənasını daşıyır. Bu tarixi abidə IV-V əsrlərdə Qax rayonunun Qum kəndində bazilika tipində inşa olunmuş Alban məbədidir. Abidə ilk dəfə əsaslı şəkildə XX əsrin 40-cı illərində bərpaçı-memar Pyotr Baranovski tərəfindən tədqiq olunmuşdur. Tədqiqatçı abidəni VI əsrə aid etmişdir.

Ulu əcdadlarımız tərəfindən əsrlər boyu yaradılan tarixi-memarlıq abidələri milli yaddaşımızın tərkib hissəsidir. Bu abidələr qədim tariximizin daş yaddaşı hesab olunur. Hazırda hər üç məbəd tarix-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

# Azərbaycan milli geyimlərinin bölgələr üzrə oxşar və fərqli xüsusiyyətləri

(Əvvəli ötən sayımızda)

**Bakı geyimləri**

Bakı geyimləri Şəki və Şamaxı geyimləri ilə oxşarlıq təşkil edir. Bu libaslarda bənövşəyi və innabı rənglərin olmasına baxmayaraq, ağ və tünd-mavi rənglər üstünlük təşkil edir. Rəngindən asılı olmayaraq, geyimin kənar bəzək və tikmələrində mavi və qızılı-sarı rənglərdən istifadə edilirdi. Beləliklə, Bakı geyimlərində insanlar ağ, mavi, qızılı-sarı, qum rənglərinə üstünlük verirdilər. Tirmə parçadan bol-bol istifadə edilməsi Abşeronun iqlimi ilə əlaqədar idi. Bakı qadınlarının üst çiyin geyimi "çəpkənnimtənə" adi çəpkəndən o qədər də fərqlənmirdi. Qadın arxalıqları, əsasən, yaxa kəsiyi ilə xarakterizə olunurdu. Yaxa kəsiyi və arxalığın qolları dirsəkdən bir qədər yuxarı, qolçaqları da çox vaxt düzbucaqlı formasında kəsilirdi. Bakı arxalıqları sadə biçimləri ilə seçilirdi.

Qadın arxalıqları sadə tikilsə də, dirsəkdən başlayıb qondarma qolçaqla tamamlanırdı. Bu qolçaqların tikilişində bəzən başqa materiallardan da istifadə edilirdi. Qadın arxalıqları digər bölgələrdən fərqli olaraq, Abşeronda "don" adlanırdı və bu donlara bütün tikişlər boyunca bəzək verilirdi. İmkanlı qadınlar arxalıqların sinəsinə qoza kimi qızılı-gümüşü düymələr tikdirərdilər.

**Gəncə-Qarabağ geyimləri**

Gəncə-Qarabağ bölgələrinin geyim dəstləri bir-birindən çox da fərqlənmir. Üst tumanı və üst çiyin geyimi ya eyni rəngdə, ya da oxşar rənglərdə, köynək isə bunlara nisbətən açıq və parlaq rənglərdə tikilirdi. Qarabağ bölgəsində üst çiyin geyimi olan çəpkənin sallamaqol variantı istifadə olunurdu. Bu tipli çəpkəndə qollar qondarma olur, çiyin tikişlərinin üstünə tikilir, ucları əlcək və qolçaqla tamamlanırdı. Bir qayda olaraq, çəpkənin qoltuqdan dirsəyə və biləkdən barmaq uclarınadək olan hissəsi açıq saxlanırdı. Bu bölgədə pullu çəpkəndən də istifadə edilirdi. Biçimi çəpkənlə eyni formada olmasına baxmayaraq qolsuz tikilirdi.

Baharı bu bölgədə geniş istifadə olunan çox bəzəkli üst geyimidir. Tünd-qırmızı, moruğurəngli məxmərdən tikilir, qolları düz, uzunluğu dirsəyə qədərdir. Bel xəttindən əlavə, büzməli ətək tikilir və hər ətəkdə kəsmə cib qoyulurdu. Yaxa, qolağzı, ətək, cib kəsiyinin ətrafı tikmə ilə bəzədilirdi. Küdrü qadın üst geyimidir. Bu geyim məxmərdən tikilir, xəz dəri və sıx naxışlarla bəzədilirdi. Bəzən sırıqlı formada da tikilirdi. Qarabağ küdrüsü bədənə kip yapışır, qolsuz olurdu. Xəz və baftadan başqa heç bir bəzəyi olmurdu.

Gəncədə isə dəridən hazırlanan küdrünün qollarına və kənar tikilişinə əlavə xəz qoyulmurdu. Dirsəyə



Nərmin Allahverdiyeva, IV kurs tələbəsi

qədər qolu olan küdrü yaxası açıq, qoltuqaltında çapıq olurdu. Qarabağ bölgəsində istifadə olunan köynəyin gövdəsi qatlama üsulu ilə biçildiyindən, çiyinliyi tikişsizdir. Qollarının üstündə xırda qırçınlar olur, əsasən, bəzək məqsədilə istifadə olunur. Köynək kənarlarında 8 sm hündürlüyündə "peş" adlanan çapıqlar olur. Qolların ağzı və yaxa kəsiyi boyunca bafta tikilir.

Milli geyimlərin əsas hissəsi olan tuman qaz-qazı, zərxara, atlas kimi parçalardan tikilirdi. Tumanın uzunluğu 86-102 sm arasında dəyişirdi. Tumanın ətəyinə müxtəlif ölçüdə tirmə və başqa parçadan qat payı tikilirdi.

**Lənkəran geyimləri**

Lənkəran geyimləri əl ilə, çox səliqəli tikilirdi. Al-qırmızı, badımcanı, açıq-qəhvəyi rənglərdən istifadə edilirdi. Tuman, əsasən, uzun, amma gündəlik geyim kimi nisbətən qısa olurdu. Köynək boyunda bir düymə ilə düymələnir, beldən bəzən qisa da olurdu. Cənub bölgəsində daha çox uzunətək köynək geniş yayılıb. Bu, nisbətən uzun olub, dizdən, təxminən, dörd barmaq yuxarıda qalırdı. Çəpkən və ya arxalığın yaxası açıq olurdu. Çəpkən Lənkəranda "nimtənə" sözündən götürülmüş "mintənə" adı ilə tanınıb.

Lənkəran-Astara bölgəsində geniş yayılmış geyim növü olan çəpkən, əsasən, uzunqollu olurdu. Bu geyimlərlə yanaşı, Azərbaycan xanımları ilin soyuq vaxtlarında küdrüyə bənzəyən, lakin xəz qoyulmadan tikilən qolsuz və sırıqlı-astarlı bir geyim növündən istifadə edirdilər ki, Lənkəran-Astara bölgəsində buna cilitka, bədəncə isə qolsuz deyərdilər. Astarına pambıq və ya yun döşənib sırınmaqla hazırlanan bu geyim növü köynəyin üstündən, çəpkən, küləcə, arxalığın altından geyilirdi. Lənkəran bölgəsində arxalıqlar uzunqollu, həmçinin biçimli olur. Bəzi arxalıqlar sıxtikişli tikmə və müxtəlif tikmə texnikalarından istifadə edilməklə bəzədilir.

**Şamaxı geyimləri**

Şamaxı geyimlərində müxtəlif rənglərdən istifadə edilirdi. Bu da çox güman ki, həmin dağlıq rayonun təbiəti ilə əlaqədar idi. Bu geyimlərdə, əsasən, sadəlik, pərakəndəlik olsa da, kübar geyimlərində zəriflik, zənginlik hiss olunurdu. Şamaxı geyimlərində bəzək elementləri və tikmələrə az-az rast gəlinirdi. Burada da arxalıqdan, üst köynək, çəpkən, ləbbadə və s. istifadə edilirdi. Üst köynəyi üçbucaq formalı yaxa kəsiyinə malik olub, çəpkənin yanlarına beldən aşağı genişlik vermək üçün üçbucaq formalı əlavə parçalardan istifadə olunurdu. Bu libaslarda geyim elementləri əl işi olaraq çox səliqəli işlənərdi.

Şamaxıda varlı qadınların geyindiyi ləbbadənin qollarına çox vaxt xəz haşiyə tikilir, yan çapığın genişliyini təmin etmək üçün onun kənarına üçbucaqformalı parça kəsib çıxıntı əlavə edirmişlər. Onu xüsusi olaraq, tikilmiş "ləbbadə köynəyi"nin üstündən geyinirmişlər.

**Şəki geyimləri**

Şəkinin milli geyimləri ləbbadə, tuman, eşmək, çaxçur, örpək, arxalıq və sairdən ibarətdir. Tuman, əsasən, atlasdan tikilir, bağ yeri olmaqla ətəyinə başqa parçadan qat payı verilirdi. Şəki qadın alt tumanı biçim etibarilə üst tumana bənzəyirdi. Altı "taxta"dan ibarət biçilməklə çitdən tikilirdi. Balaqlarının enli olmasına baxmayaraq, tumanın parçasına miyança bənd olunurdu. Bu tip növ Azərbaycanın əksər bölgələrində "genbalaq" tuman adı ilə tanınırdı. Şəki qadın alt köynəyi qanovuzdan tikilib, biçim etibarilə Gəncə köynəyini xatırladır. Qatlama üsulu ilə biçildiyindən, onun çiyni tikişsiz olub, qolaltına "xiştək" tikilirdi. Şəki qadınlarının üst köynəyinin qoluna dirsəyədək əyri xətt boyunca, sonra isə biləyədək düz xətt boyunca əlavə parça verilirdi. Bunun sayəsində köynəyin qolu qismən genişləndirilirdi. Köynəyin bu növü "ləbbadə köynək" adlanırdı.

# Gürcüstan Müsəlmanları İdarəsinin nümayəndə heyəti İlahiyyat İnstitutunda



**4 iyul 2019-cu il tarixdə Gürcüstan Müsəlmanları İdarəsinin nümayəndə heyəti - Gürcüstan Müsəlmanları İdarəsinin Şeyxi Ramin İgidov, idarənin Şərqi Gürcüstan üzrə müftisi Yasin Əliyev, Qərbi Gürcüstan üzrə müftisi Beglar Kamaşidze və bu qurumun katibi Oktay İsayev Azərbaycan İlahiyyat İnstitutunu (AİI) ziyarət ediblər.**



Qonaqlarla görüşən AİI rektoru Ceyhun Məmmədov ölkələrimiz arasında dostluq münasibətlərindən danışaraq, Azərbaycan-Gürcüstan əlaqələrinin yüksək səviyyədə olduğunu nəzərə çatdırıb. C.Məmmədov Azərbaycanda yüksək dini-mənəvi mühitin mövcud olduğunu, dövlət-din siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verilir.

AİI-nin yaranma səbəbi, fəaliyyət istiqamətləri, hədəfləri haqqında danışan rektor İnstitutda təhsilin ödənişsiz əsaslarla həyata keçirildiyini, tələbələrin geyim, yemək və yataqxana xərcləri ilə təmin olunduqlarını vurğulayıb. Gənclərin sağlam ruhda tərbiyə olunmasının vacibliyi, təkcə dini biliklərə deyil, eləcə də dünyəvi biliklərə malik mütəxəssislərə ehtiyac olduğu diqqətə çatdırılıb. Qonşu ölkələrin təhsil müəssisələri ilə əlaqələrin qurulmasında və təcrübə mübadiləsinin aparılmasında maraqlı olduğunu vurğulayan C.Məmmədov bildirib ki, İnstitutun qapıları təkcə Azərbaycan vətəndaşları üçün deyil, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız üçün də açıqdır. Gələcəkdə rus, ingilis və ərəbdilli bölmələrin açılması və dünyanın müxtəlif ölkələrindən tələbələrin İnstitutda təhsilə cəlb olunmaları nəzərdə tutulur.

Səmimi qəbula görə, AİI rəhbərliyinə təşəkkür edən nümayəndə heyəti Azərbaycana səfərdən, xüsusilə Bakı şəhərində keçirilən görüşlərdən məmnunluğunu ifadə edib. Gürcüstan Müsəlmanları İdarəsinin sədri Ramin İgidov Azərbaycan və Gürcüstanın dini qurumları arasında sıx münasibətlərin olduğunu, ölkələrimiz arasında bu sahədə mövcud əlaqələrin daha da möhkəmləndirilməsi və gələcəkdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsindən əminliyini ifadə edib. Ramin İgidov dünyada radikallığın artdığı indiki dövrdə Azərbaycanın tolerantlıq baxımından müsbət təcrübə yaratdığını söyləyərək, bu təcrübənin öyrənilməsinin vacib olduğunu bildirib. O, Gürcüstanda fəaliyyət göstərən mədrəsə və kolleclər haqqında məlumat verib. Qeyd olunub ki, burada da müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilir, Azərbaycan və gürcü dillərinə tərcümə edilən İslam dini haqqında kitablar nəşr olunur.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran məsələlər və gələcək əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan İlahiyyat İnstitutu İsmayıllıda



2019-2020-ci tədris ili üzrə İnstituta savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində maarifləndirici xarakterli məlumatlandırma tədbirləri davam edir. İnstitutun növbəti səfəri 4 iyul 2019-cu il tarixdə İsmayıllı rayonuna olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Tədbiri giriş sözü ilə açan İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov qonaqları salamlayaraq bildirib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən biridir. M.Sadıqov Prezident İlham Əliyevin rəhbərliyi ilə İsmayıllı rayonunda yaradılan şəraitdən, sürətli inkişafdan, təhsilə göstərilən qayğıdan, İsmayıllı ziyalılarına, ailmlərinə, elm adamlarına verilən qiymətdən bəhs edib. Bildirib ki, şagirdlərin vətənpərvərlik, Azərbaycançılıq ruhunda, milli-mənəvi dəyərlər əsasında inkişafına daha ciddi yanaşılmalı, təlim və tərbiyənin uğurları bir-birini tamamlamalıdır.

AİI rektoru Ceyhun Məmmədov vurğulayıb ki, ölkəmizdə təhsil islahatlarının aparılması, təhsil infrastrukturunun əsaslı şəkildə yenilənməsi və Azərbaycan təhsilinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması Prezident cənab İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Bu sahəyə müasir və çevik yanaşmalar sayəsində təhsil müəssisələri istər keyfiyyət göstəriciləri, istərsə də daha sağlam mənəvi-psixoloji mühitin təmin olunması baxımından ciddi uğurlara imza atır.

AİI rektoru abituriyentlərə sevdikləri ixtisası seçməyi tövsiyə edərək bildirib ki, öz sahəsinin peşəkarı olmaq, yüksək dil biliklərinə, nitq qabiliyyətinə yiyələnmək vacibdir.

Ali təhsil müəssisəsinin yaranma tarixi, fəaliyyət istiqamətləri, məqsəd və hədəfləri haqqında bəhs edən Ceyhun Məmmədov Azərbaycan İlahiyyat İnstitutuna qəbulun tam ödənişsiz əsaslarla aparıldığını nəzərə çatdırıb. Vurğulayıb ki, bu, ilahiyyatçı olmaq istəyən, lakin təhsil haqqını ödəyə bilməyən abituriyentlər üçün bu böyük şansdır. Əsas məqsədlərimizdən biri mövhumat və xurafatdan uzaq, yüksək dini və dünyəvi biliklərə malik mütəxəssislərin yetişdirilməsidir.

AİI-nin ərəb dili müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov qeyd edib ki, İlahiyyat İnstitutunun təsis edilməsi ölkəmizin dini və ictimai həyatı üçün mühüm hadisədir və Azərbaycan Dövlətinin dinə, milli-mənəvi dəyərlərə verdiyi əhəmiyyətin göstəricisidir. O bildirib ki, ali təhsil müəssisəsində həm dini, həm də dünyəvi elmləri bilən, müxtəlif dillərə yiyələnən ziyalı ilahiyyatçı kadrlar və din xadimləri hazırlanır. Belə kadrların hazırlanması dinin insanlara doğru şəkildə çatdırılması, həmçinin din sahəsindəki təhlükəli tendensiyaların qarşısının alınması baxımından vacibdir. Azərbaycan İlahiyyat İnstitutu qeyd olunan parametrlərə uyğun gələn kadrların hazırlanması üçün lazımi potensiala malikdir.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. Qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. F.Yusifova tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini nəzərə çatdırıb.

Sonda tədbir iştirakçılarına AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş olunub.

# Tələbələrimiz Bursada "Yay məktəbi"ndədirlər



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) tələbələri Türkiyə Cümhuriyyətinin Təhsil Nazirliyi və Dəyanət İşləri Başqanlığı arasında razılaşmaya əsasən, Türkiyənin Bursa şəhərində təşkil olunan "Yay məktəbi"ndə iştirak edirlər.

22 iyul 2019-cu il tarixdə başlayan "Yay məktəbi"nin ilk günündə müəllimlər "Yay məktəbi"ndə iştirak edən Azərbaycan İlahiyyat İnstitutu, Qazaxıstan və Qırğızıstandan gəlmiş İlahiyyat fakültəsi tələbələrinə uğurlar arzulayıb, onları burada görməkdən məmnunluqlarını ifadə ediblər. Tələbələr üçün lazımi şəraitin yaradıldığını, dərslərin peşəkar müəllimlər tərəfindən tədris olunacağını, asudə vaxtlarının səmərəli dəyərləndirilməsindən ötrü müxtəlif tədbirlərin keçiriləcəyini nəzərə çatdırıblar. Həmçinin Bursa şəhərinin tarixi məkanlarına səfərin, eyni zamanda, Bursa Uludağ Universiteti İlahiyyat fakültəsinə ziyarətin də nəzərdə tutulduğunu bildiriblər.

Məlumat üçün bildiririk ki, "Yay məktəbi"nin təşkilində əsas məqsəd tələbələrin ixtisas biliklərinin və fərdi bacarıqlarının artırılmasıdır. Burada tələbələrə ərəb və ingilis dilləri, Siyər və "Qurani-Kərim" dərsləri tədris olunacaq.

Qeyd edək ki, AİI-nin qarşıya qoyduğu əsas məqsədlərdən biri İslam və digər dünya dinləri haqqında dərin biliklərə yiyələnən, tərəfsiz və bütün konfessiyalara dözümlülüklə yanaşan din xadimləri yetişdirməklə yanaşı, intellektual, elmi potensiallı, səriştəli və savadlı kadrlar hazırlamaqdır. Nəzərə çatdıraq ki, AİI dünyanın müxtəlif təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri qurur.



# İlk magistrantların dissertasiya işlərinin müdafiəsi keçirilib

İlahiyyat fakültəsində 28 iyun 2019-cu il tarixdə Dinin psixologiyası və İslamşünaslıq ixtisaslaşmaları üzrə magistrlik dissertasiyalarının müdafisəsi keçirilib.

Magistrlik dissertasiyalarının müdafiəsi üçün İxtisaslaşdırılmış Şuranın sədri BDU Şərqşünaslıq fakültəsinin kafedra müdiri akademik Vasim Məmmədəliyev çıxış edərək, magistrantlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Alim bundan sonra da gənclərə elmi-tədqiqatlar aparmağı, qazandıqları bilikləri həyatda uğurla reallaşdırmağı, ölkəmiz üçün dəyərli vətəndaş, bacarıqlı mütəxəssis olmağı tövsiyə edib.



Daha sonra elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrini uğurla başa vurmuş II kurs magistrantları "Zigmund Freyd və din"; "Karl Qustav Yunq və dinə baxışı"; "İslamda iradə azadlığı"; "İslamda Allahın varlığının dəlilləri" mövzularında dissertasiya işlərini müdafiə ediblər. Magistrantlar dissertasiya işləri ilə bağlı Şura üzvlərinin suallarını cavablandırıblar.

İnstitutun müəllimləri, dekan və kafedra müdirlərinin iştirak etdikləri müdafiədə müzakirələr aparılıb, opponent rəyləri dinlənilib. Şura üzvləri çıxış edərək, tövsiyələrini bildiriblər.

Sonda magistr dərəcəsinin verilməsi haqqında qərar qəbul edilib.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda doktorantura pilləsinə 2020/2021-ci tədris ili üçün qəbul həyata keçiriləcək.

YÜKSƏK TƏHSİL UĞRUNDA!
İLAHİYYATÇI
www.ait.edu.az



# İlahiyyat İnstitutunun müəllimləri Beynəlxalq Simpoziumda iştirak ediblər

19-20 iyun 2019-cu il tarixdə Əfqanıstanın Kabil şəhərində Beynəlxalq İmam Əbu Hənifə Simpoziumu keçirilib. Əfqanıstan Respublikası Həcc və Din İşləri Nazirliyinin təşkilatçılıq etdiyi tədbirdə dünyanın on beş ölkəsindən 50-yə yaxın əcnəbi qonaq, ölkə daxilindən isə 3000-dən artıq din alimi, mütəxəssislər iştirak ediblər.

Konfransda Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qəni, vitse-prezident Sərvər Daniş, Həcc və Din İşləri naziri Əbdülkərim Münib və digər rəsmilər iştirak ediblər.

Böyük İslam alimi, müsəlman hüquqşünası Əbu Hənifə Nöman ibn Sabitin (699-767) həyat və yaradıcılığına həsr edilmiş Simpoziumda Azərbaycan, Rusiya, Qazaxıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, Malayziya, İraq, Türkiyə, Səudiyyə Ərəbistanı, İran, Misir, Avstraliya və digər ölkələrdən gəlmiş dinşünas mütəxəssislər, din xadimləri panellərdə Əbu Hənifənin İslam hüququndakı yeri haqqında müxtəlif mövzularda məruzələrlə çıxış ediblər.

Simpoziumda ölkəmizi Azərbaycan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov, ali tədris müəssisəsinin müəllimi fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov təmsil ediblər.



A. Şirinov "Azərbaycanlı alimlərin hənəfi hüquq məktəbinin inkişafındakı rolu" mövzusunda çıxış edərək, azərbaycanlı alimlərin müsəlman, xüsusən, hənəfi hüququna verdiyi töhfələr haqqında Simpozium iştirakçılarını məlumatlandırıb.

E. Məmmədov "Sünnə mətnlərinə münasibətdə Əbu Hənifənin "məqasid" metodu" adlı məruzəsində Əbu Hənifənin ictihad metodologiyasına, dini mətnlərin reallığa tətbiqində müraciət etdiyi rasional üsullara toxunub.

AİI-nin müəllimləri Simpozium iştirakçılarına, eyni zamanda, AİI-nin yaranma məqsədi, fəaliyyət istiqamətləri barədə də məlumat veriblər. Simpoziumun son günündə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qəni öz iqamətgahında Simpoziumda iştirak edən xarici qonaqların şərəfinə rəsmi ziyafət verib.

# "Azərbaycan və Amerika cəmiyyətlərində dinə münasibət"



5 iyul 2019-cu il tarixdə "Crossroads" kilsəsinin Rəhbərlik Komitəsinin üzvü Con Hofman və tərcüməçi Marta Hofmanın təqdimatında "Azərbaycan və Amerika cəmiyyətlərində dinə münasibət" mövzusunda seminar keçirilib.

İnstitutun Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov seminar iştirakçılarını salamlayaraq bildirib ki, təhsil müəssisəsi tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi istiqamətində ardıcıl "dəyirmi masa"lar, treninqlər, seminarlar, görüşlər keçirir. İ.Əlimuradov mütaliə, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən, nitq mədəniyyətinin, fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi üçün İnstitutda ötən dövr ərzində maarifləndirmə yönündə xeyli iş görüldüyünü nəzərə çatdırıb.

"Crossroads" kilsəsinin Rəhbərlik Komitəsinin üzvü Con Hofman və Marta Hofman "Azərbaycan və Amerika cəmiyyətlərində dinə münasibət" mövzusunda məruzə ilə çıxış ediblər. Con Hofman bildirib ki, din yalnız Yaradana ibadət sistemi deyil, həmçinin daha çox həyat tərzidir. Din istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsini təşkil edib.

Con Hofman qeyd edib ki, ABŞ-da dini təhsil verən məktəblər üç növə bölünür: rəsmi məktəblər, dini qurumlar tərəfindən açılmış məktəblər, kilsə məktəbləri. Valideyn övladını orta məktəbə qoyarkən, ona dinin tədris edilməsini istəyərsə, məktəb rəhbərliyi ən yaxın kilsə məktəbində buna imkan yaradır.

Marta Hofman bildirib ki, din dünya xalqlarının tarixində mühüm yer tutur, bütün qitələrin xalqlarının, həmçinin Amerikanın həyatında mövcuddur, insanların mənəvi birliyidir, cəmiyyətdə və məişətdə onun rolu böyükdür.

M.Hofman Azərbaycanda müxtəlif millətlərə mənsub olan insanların sülh və əmin-amanlıq şəraitində yaşadıqlarının, bir-birlərinə hörmət bəslədiklərinin şahidi olduğunu vurğulayıb.

Qonaqlar tədbirin təşkil olunmasına, səmimi münasibətə, qonaqpərvərliyə görə, İnstitut rəhbərliyinə və digər tədbir iştirakçılarına minnətdarlıqlarını bildiriblər.

Seminarın sonunda tələbələrin sualları cavablandırılıb, onlarla fikir mübadiləsi aparılıb.

# Qan yaddaşımız

*İşğal olunmuş rayonlarımız:*

| | |
|---|---|
| **Xankəndi** - | 28 dekabr 1991-ci il |
| **Xocalı** - | 26 fevral 1992-ci il |
| **Şuşa** - | 8 may 1992-ci il |
| **Laçın** - | 18 may 1992-ci il |
| **Xocavənd** - | 2 oktyabr 1992-ci il |
| **Kəlbəcər** - | 2 aprel 1993-cü il |
| **Ağdərə** - | 17 iyun 1993-cü il |
| **Ağdam** - | 23 iyul 1993-cü il |
| **Cəbrayıl** - | 23 avqust 1993-cü il |
| **Füzuli** - | 23 avqust 1993-cü il |
| **Qubadlı** - | 31 avqust 1993-cü il |
| **Zəngilan** - | 29 oktyabr 1993-cü il |

## Rusiyanın "Minbar" jurnalında Azərbaycan haqqında yazılar dərc olunub

Rusiyanın Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun "Minbar" İslam araşdırmaları jurnalının sonuncu sayında Azərbaycan haqqında məlumatlar dərc olunub.



Ислам на перекрёстке эпох и цивилизаций

Азербайджанская коллекция Государственного музея Востока

*«...распространение и развитие ислама на Кавказе составляет большую часть истории кавказских народов, вместе с тем отражает ценный вклад, подаренный исламской цивилизацией народам Кавказа».*
*Гейдар Алиев*

**Посольская скатерть**
Шеки, сер. XIX в.
*шерсть, сукно, шелковые нити, аппликация сезани, вышивка тамбурным швом тякялдуз*

В Азербайджане прославился особый вид вышивок, известных здесь как сезани. В России их называли «посольскими скатертями», так как они дарились иноземным гостям в торжественных случаях. Издали подобные «скатерти» напоминают сложно инкрустированные мозаичные панно с центрической композицией.

**Крышка для плова сярпуш**
Азербайджан, втор. пол. XIX в.
*медь, ковка, полуда, гравировка*

**Верхняя девичья выходная одежда кюляджа**
Кон. XIX в.
*бархат, галунная тесьма, шнурок, шитье вприкреп, плетение*

Декоративно-прикладное искусство Азербайджана развивалось в русле исламской культуры, однако сохраняло национальное своеобразие.

Сложно декорированные медные крышки сярпуш на чаши, в которых плов подавался, были широко распространены в бытовой культуре азербайджанцев. Орнамент часто дополнялся изречениями из Корана, выполненными арабской вязью.

Государственный МУЗЕЙ ВОСТОКА
© Государственный музей Востока
© The State Museum of Oriental Art
MINBAR ISLAMIC STUDIES

Государственный музей Востока – Партнер журнала *Minbar. Islamic Studies*, является единственным музеем России, специализирующимся на собирании, хранении, изучении, популяризации произведений искусства народов Востока. В его собрании представлены памятники художественной культуры более чем 100 стран и народов Азии и Африки.

Jurnalın ilk səhifəsində Ulu Öndər Heydər Əliyevin "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun açılış mərasimindəki nitqindən - "Qafqazda İslamın yayılması və inkişaf etməsi Qafqaz xalqlarının tarixinin böyük bir hissəsini təşkil edir, eyni zamanda, İslam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələrin olmasını əks etdirir" - sözləri qeyd olunub. Jurnalın birinci səhifəsində XIX əsrə aid Azərbaycanın milli geyimləri, mətbəx əşyaları və xalçası da əks olunub.

Baş redaktoru Bolqar İslam Akademiyasının rektoru Rafiq Muxametşin olan jurnalda Azərbaycan haqqında məqalələr də nəşr edilib.

Jurnalın redaksiya heyətinə dünyanın müxtəlif ölkələrinin tanınmış alimləri daxildir. Qeyd edək ki, İslamın yaranmasından müasir dövrə qədər onun bütün sahələrini əks etdirən tarixi, psixoloji və teoloji cəhətdən əsaslandırılmış "Minbar" jurnalı İslam dini və İslam dünyasının bütün aspektlərini əhatə edir. Redaksiya Heyətinin sədri Rusiya Elmlər Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Vitali V. Naumkindir.

Məlumat üçün bildiririk ki, jurnalın baş redaktorunun müavinləri - Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya, Qafqaz və Ural-Volqa Tədqiqat Mərkəzinin elmi işçisi Şəmil Kəşşaf və Moskva Dövlət Psixoloji-Pedaqoji Universiteti Etnopsixologiya və Çoxmədəniyyətli təhsilin psixoloji problemləri kafedrasının dosenti Olqa Pavlova "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunda iştirak ediblər. Azərbaycan İlahiyyat İnstitutunda təşkil olunan görüşlər zamanı "Minbar" jurnalının növbəti saylarında Beynəlxalq Simpozium haqqında məlumatların çap olunması qərara alınıb.

Təsisçi: AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU / AZERBAIJAN INSTITUTE OF THEOLOGY 2018

Baş redaktor: Ceyhun Məmmədov
Redaktor: Rəhilə Misirxanlı

Qeydiyyat nömrəsi: 4212
VÖEN: 1305654461

Telefonlar: (012) 510-65-45; (012) 510-39-61.
E-mail: ilahiyyat-news@mail.ru

Ünvan: Əhməd Cəmil, 41A, Bakı

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İLAHİYYATÇI"nın kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap edilir.
Çapa imzalanıb: 25.07.2019-cu il
Sayı: 1000, İndeks: AZ1141,
Sifariş: 2478